RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 31 (8347) ÇƏRŞƏNBƏ, 12 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycana dünyada maraq və rəğbət artıb

## Prezident İlham Əliyevin müstəqil siyasəti ilə ölkəmiz beynəlxalq münasibətlər sisteminin fəal üzvü kimi tanınır

**Davamlı inkişafda olan Azərbaycan yeni islahatlar mərhələsini yaşayır. 2019-cu il ölkə tarixinə demək olar ki, ən dərin islahatlar ili kimi düşdü. Bu il də mütərəqqi islahatlar davam etməkdədir.**

Prezident İlham Əliyevin həyata keçirdiyi sistem xarakterli iqtisadi islahatlar və qlobal iqtisadi çağırışlara uyğun olaraq hazırlanmış strateji yol xəritələrinin icrası Azərbaycanı dünyanın əlverişli investisiya məkanına, forum və konfransların, idman yarışlarının keçirildiyi mərkəzə çevirib. Bütün bunları şərtləndirən ən mühüm amil ilk növbədə ölkədəki sabitlik və əlverişli investisiya, biznes mühitidir. Eyni zamanda xarici investorlara yaradılan əlverişli şərait, güzəştlər, iş adamlarının diqqətini ölkəmizə daim cəlb edir. Bu səbəbdən də xaricdən sərmayə qoymaq istəyənlərin sayı çoxalır. Həm xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, həm də bu məqsədlə əlverişli mühitin yaradılması Azərbaycan dövlətinin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Prezident İlham Əliyev müstəqil, milli maraqların hər zaman uca tutulduğu siyasəti ilə Azərbaycanı dünyaya etibarlı tərəfdaş kimi tanıdır. Elə bunun səbəbidir ki, son illərdə dünyada Azərbaycana maraq və rəğbət artır. Dünyanın beynəlxalq reytinq təşkilatlarının, iqtisadi forumlarının hesabatlarında, iclaslarında Azərbaycanın adı xüsusi vurğulanır. Hər ötən il Azərbaycan irəliyə doğru inamla addımlayır.

Yanvarın 21-də İsveçrənin Davos şəhərində sayca 50-ci Dünya İqtisadi Forumuna dəvət edilən Azərbaycan Prezidentinin keçirdiyi görüşlər, səsləndirdiyi fikirlər bir daha təsdiq etdi ki, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi Avrasiyada körpü rolunu oynayır.

Ardı 3-cü səh.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkilərində qələbə qazanması münasibətilə səmimi təbriklərimi qəbul edin.

Xalq səsverməsinin yekunları Sizin başçılıq etdiyiniz partiyanın Azərbaycan vətəndaşları arasında nüfuzunun yüksək olduğunu əyani təsdiq etdi.

Ümidvaram ki, dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətləri bundan sonra da möhkəmlənəcək.

Sizə və Sizin silahdaşlarınıza yeni-yeni uğurlar, Azərbaycan xalqına isə firavanlıq və rifah arzu edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri, hörmətli Prezident Əliyev!

Yeni Azərbaycan Partiyasının parlament seçkilərində qalib gəlməsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ölkənizi möhkəm əsaslar üzərində qurulmuş uğur yolu ilə irəli aparmaq arzularımı qəbul etməyinizi xahiş edirəm.

Yeni Azərbaycan Partiyasının qələbəsi partiyanızın cəsarət və məsuliyyətinin ifadəsi, Sizin bu partiyanın lideri kimi dövlətin və xalqın inkişafına verdiyiniz töhfənin təcəssümüdür. Aydın siyasi mövqeyinizi, tükənməz enerjinizi və işinizə bağlılığınızı yüksək qiymətləndirirəm. Azərbaycanın böyük müvəffəqiyyətlər əldə etməsi səmimi dostunuz kimi məni çox sevindirir.

Ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin və strateji tərəfdaşlığın inkişafına verdiyiniz şəxsi töhfənizə görə Sizə çox minnətdaram. Sizinlə əməkdaşlıq etmək mənim üçün böyük şərəfdir. Serbiya Azərbaycanın səmimi və etibarlı dostu və tərəfdaşı olaraq qalır. Ümid edirəm ki, səmimi və həqiqi dostluğumuz gələcəkdə bütün sahələrdə daha uğurlu əməkdaşlıqla nəticələnəcək.

Serbiyanın mühüm dövlət və milli maraqlarını, xüsusilə Kosovo məsələsi ilə bağlı mövqeyini dəstəklədiyinə görə Azərbaycana böyük minnətdarlığımı bildirməklə yanaşı, BMT-nin bütün üzv dövlətlərinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etdiyimizi, həmçinin Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə inamımızı bildirmək istərdik.

Fürsətdən istifadə edərək, zati-aliləri, bir daha Sizə səmimi salamlarımı və dərin ehtiramımı bildirirəm.

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

# "Muğamı yaşatmaq bizim üçün müqəddəs vəzifədir"

## Bunu Prezident İlham Əliyev Xalq artisti Əlibaba Məmmədova "Şərəf" ordenini təqdim edərkən bir daha vurğuladı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 11-də Heydər Əliyev Mərkəzində musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovla görüşüblər və burada təşkil olunan bir neçə sərgi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Xalq artisti Əlibaba Məmmədovu salamlayan **Prezident İlham ƏLİYEV** dedi:



- Hörmətli Əlibaba müəllim, sizi, ilk növbədə, 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Bir həftə bundan əvvəl mənim sərəncamımla siz Azərbaycan dövlətinin yüksək ordeni olan "Şərəf" ordeni ilə təltif olunmusunuz. Bu gün bu yüksək mükafatı sizə təqdim edəcəyəm.

Siz uzun illərdir ki, xalqımızı öz sənətinizlə sevindirirsiniz. Həm gözəl ifaçı, xanəndə, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinin xəzinəsinə böyük töhfələr vermisiniz. Siz 100-dən artıq mahnının müəllifisiniz və sizin ifanızda səslənən xalq mahnılarımız, muğamlarımız insanlara xüsusi zövq verir. Xalq sizi ürəkdən sevir, siz həm gözəl sənətkar, həm də gözəl insansınız. Siz Azərbaycan ziyalısını təcəssüm etdirirsiniz. İnsan kimi də sizin çox yüksək keyfiyyətləriniz var. Çox xeyirxah, ədalətli və eyni zamanda, həmişə öz biliklərinizi, öz sənətinizi gənc nəsillə bölüşməyə hazır olmusunuz. Sizin bu sahədə müstəsna xidmətləriniz yüksək qiymətləndirilir. Çünki bizim bir çox görkəmli muğam ifaçılarımız sizin məktəbinizin, belə demək mümkündürsə, məzunlarıdır.

Muğam bizim milli sərvətimizdir. Siz bizim milli sərvətimizin qorunmasında xüsusi rol oynamısınız. Xüsusilə qeyd etməliyəm ki, müntəzəm olaraq keçirilən muğam müsabiqələri televiziya vasitəsilə milyonlarla insanı əhatə edir.

Ardı 2-ci səh.

# İqtisadi inkişaf ölkənin elektrik enerjisi ilə təchizatının daha etibarlı və dayanıqlı olmasını tələb edir

Prezident İlham Əliyev fevralın 10-da Pirallahı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyasının açılış mərasimində iştirak edib.

Qeyd edək ki, dövlət başçısının təşəbbüsü ilə digər sahələrdə olduğu kimi, ölkənin enerji təminatının yaxşılaşdırılması istiqamətində də mühüm işlər görülür. Bunun sayəsində ölkənin dayanıqlı enerji ilə təchizatına nail olunmaqla yanaşı, ixrac imkanları da genişlənir.

"Dübəndi" yarımstansiyasının yenidən qurulması "Bakı şəhərinin və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrası nəticəsində mümkün olub.

Ardı 3-cü səh.

# Obyektiv və rəqabətli

## Beynəlxalq müşahidəçilər parlament seçkilərini Azərbaycanda demokratiya yolunda mühüm addım kimi qiymətləndirdilər

**Fevralın 9-da Azərbaycanda altıncı çağırış Milli Məclisə seçkilər ölkənin siyasi tarixinə yazılan əlamətdar günlərdən biri oldu. Seçkilərin ədalətli və şəffaf keçirilməsi üçün bütün imkanlar yaradılmışdı.**



Yerli və beynəlxalq müşahidəçilərlə yanaşı, xarici kütləvi informasiya vasitələrinin və digər aşkarlıq institutlarının sərbəst fəaliyyəti üçün hər cür şərait mövcud idi. Seçkilərdə "exit-poll" keçirmək məqsədilə MSK-ya müraciət edən 3 təşkilatın hamısı qeydə alınmışdı ki, onların da 2-si öz fəaliyyətlərini xarici partnyorları ilə birgə qurmuşdu.

Əvvəlcə onu xatırladaq ki, müstəqil Azərbaycanda ilk Konstitusiyanın qəbul olunduğu 1995-ci ildən bugünədək beş prezident (1998, 2003, 2008, 2013 və 2018), altı parlament (1995, 2000, 2005, 2010, 2015 və 2020), beş bələdiyyə (1999, 2004, 2009, 2014 və 2019) seçkiləri keçirilib.

Ardı 4-cü səh.

# "Şahdəniz"in sayəsində Azərbaycan Avrasiyada qaz ixrac edən ölkəyə çevrildi

## Yataqda yeni quyuların qazılması sabit hasilat səviyyəsinədək davam edəcək

**"Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından qaz və kondensat hasilatı ahəngdar davam edir. Keçən il bu qurğulardan ümumilikdə 16,8 milyard standart kubmetr qaz və təqribən 3,5 milyon ton (28,6 milyon barel) kondensat hasil edilib.**

"Şahdəniz Alfa" platformasından "Şahdəniz" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində hasilat əldə olunur. Bu qurğu 13 ildən çoxdur fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Ötən ilin iyul ayının sonunda "Şahdəniz Bravo" platformasından ilk qaz alındığı vaxtdan burada da hasilat tədricən artmaqda davam edir.

Ardı 5-ci səh.

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Vergi xidməti işçilərinin peşə bayramı günü ilə əlaqədar İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Bayramov Mənaf Bayram oğlu
Ələkbərov Sahib Nurəddin oğlu
Məmmədxanov Sahir Polad oğlu

**1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Fətizadə Zaur İntiqam oğlu
Məmmədov Elçin Fərrux oğlu

**2-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Bəylərov Elçin Bəylər oğlu
Hüseynov İlham Qulamhüseyn oğlu

**3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Ağammədov Yaqub Sabir oğlu
Alcanov Fuad Oktay oğlu
Alimova Nigar Əyyub qızı
Balakişiyev Natiq Halay oğlu
Bayramlı Nurlan Famil oğlu
Bayramov Bayram Afər oğlu
Bədəlov Eldar Mülküm oğlu
Əhmədov Eldəniz Yunis oğlu
Hacıyev Elnur Sabir oğlu
Hüseyinov Fəxri İxtiyar oğlu
İsmayılov Pərviz Həmid oğlu
İsmayılova Zibeydə Rafiq qızı
Quliyev Mehrəli Gülməmməd oğlu
Quliyev Səxavət Gülbaba oğlu
Quliyev Toğrul Fəxrəddin oğlu
Qurbanov Vüqar Əlyar oğlu
Mansurov Elnur Məhəmməd oğlu
Məmmədov Sarxan Murad oğlu
Mustafayev Fateh Fazil oğlu
Paşayev İlqar Mirzə oğlu
Səfərov Şahin Sabir oğlu
Şabanov Əli Hacı oğlu
Şəkərov Ramil Fikrət oğlu
Tağıyeva Təranə Mehmandar qızı
Təhməzov Qərib Dadaş oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Əkbərli Zaur Fəxrəddin oğlu
Əliyev Azər Rəsul oğlu
İmanov Nicat Şükür oğlu
Quliyev Zaur Zakir oğlu
Seyidov Nuri Söyünqulu oğlu
Yusubov Elçin Mustafa oğlu
Zinatov Ruslan Viktoroviç

**"Tərəqqi" medalı ilə**

Ağakişiyev Elçin Nadir oğlu
Balakişiyeva Yeganə Nəsir qızı
Kazımov Mirəli Sahib oğlu
Şirinov Natiq Telman oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2020-ci il*

## 2020-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2020-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Ağayev Ziya Səbuhi oğlu
Ağazadə Murad Firdovsi oğlu
Əsgərzadə Elmar Etibar oğlu
Hacıyeva Sərvinaz Faiq qızı
Hüseynli Məhərrəm Rüfət oğlu
İbrahimov Kənan Qabil oğlu
Kazımzadə Günay Tofiq qızı
Quliyeva Mətanət Elşən qızı
Məmmədov Faiq Rəşad oğlu
Rüstəmov Sabir Elşad oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2020-ci il*

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında 2019-cu il dekabrın 11-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Koreya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2020-ci il*

# "Muğamı yaşatmaq bizim üçün müqəddəs vəzifədir"

## Bunu Prezident İlham Əliyev Xalq artisti Əlibaba Məmmədova "Şərəf" ordenini təqdim edərkən bir daha vurğuladı









*Əvvəli 1-ci səh.*

Bu müsabiqələrə baxarkən bizim insanlarımız, hətta musiqidən uzaq olan insanlar muğamın əsl mahiyyətini, incəliklərini öyrənirlər. Gənc ifaçıların çıxışları, xüsusilə münsiflər heyətinin təhlilləri böyük maraq doğurur. Çünki muğamın əsl mahiyyəti, bütün incəlikləri münsiflər heyətinin açıqlamalarında özünü büruzə verir. Siz gənc ifaçılara böyük mərhəmətlə yanaşırsınız, bəzi hallarda görürəm, onları ruhlandırırsınız ki, ruhdan düşməsinlər. Eyni zamanda, onların səhvlərini qeyd edirsiniz və yol göstərirsiniz. Hesab edirəm ki, əsl sənətkarın xalq qarşısında xidmətləri bundan ibarətdir. Siz o insanlardansınız ki, təkcə öz sənətinizə qapılmamısınız, onu bölüşmək istəyirsiniz. İstəyirsiniz ki, muğam yaşasın, gənclər bu sənətə yiyələnsinlər.

Onu da bildirməliyəm ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə televiziya müsabiqələri artıq uzun illərdir keçirilir. Hesab edirəm ki, bunun nəinki musiqi mədəniyyətimizin, bütövlükdə mənəvi dəyərlərimizin təbliğində xüsusi əhəmiyyəti var. Mən çox şadam ki, bizim gənclərimizin böyük əksəriyyəti milli musiqiyə bağlıdır. Bu, hər bir ölkədə belə deyil. Elə ölkələr var ki, orada milli musiqi kənarda qalır, indi dəbdə olan hansısa beynəlxalq musiqi nümunələri üstünlük təşkil edir. Ancaq hesab edirəm, bizim üstünlüyümüz və xoşbəxtliyimiz ondan ibarətdir ki, gənclərimiz də milli musiqiyə bağlıdırlar. Muğamı yaşatmaq bizim üçün müqəddəs vəzifədir. Eyni zamanda, ölkəmizdə bir neçə dəfə keçirilmiş beynəlxalq muğam festivalları da xüsusi rol oynayır. Bu festivallara bir çox ölkələrdən ifaçılar gəlir. Məhz bu festivalı Azərbaycanda keçirməklə bir daha sübut edirik ki, muğam bizim sənətimizdir, muğamın vətəni Azərbaycandır və biz bunu bütün dünyaya çatdırırıq. Bu, onu göstərir ki, xalqımız nə qədər istedadlıdır, bizim milli sənətimiz sərhədlərimizin hüdudlarından kənarda çox sevilir və bir çox ölkələrdə bu sənət yaşayır.

Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir, Azərbaycan xalqı da həmçinin. Siz 20 il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin sərəncamına əsasən "Şöhrət" ordeni ilə təltif olunmusunuz. On il bundan əvvəl mənim sərəncamımla "İstiqlal" ordeni ilə təltif edilmisiniz. Bir həftə bundan əvvəl - fevralın 4-də "Şərəf" ordeni ilə təltif olunmusunuz. İcazə verin, bu ordeni sizə təqdim edim.

* * *

Prezident İlham Əliyev "Şərəf" ordenini Əlibaba Məmmədova təqdim etdi.

* * *

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Əlibaba Məmmədov:** Çox sağ olun, əziz və çox hörmətli cənab Prezidentimiz.

Mən xoşbəxt xanəndəyəm. Ona görə xoşbəxt xanəndəyəm ki, mənə həmişə dövlət qayğısı olub, xüsusilə bizim Ulu Öndərimiz mənim bu sənətimə çox yüksək qiymət verib. Bu barədə çox danışa bilərəm. Sizə təşəkkür edirəm, var olun. Mən xoşbəxtəm, özümü xoşbəxt sayıram, 90 il yaşamışam, 70 il xalqımıza fasiləsiz xidmət etmişəm. Bax, bu, mənə bəsdir. Amma bu gün bu ordeni Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Haqqımda dediyiniz çox sözlərə görə Sizə bir daha ürəkdən təşəkkür edirəm. Çox böyük qiymətdir. İnanın, mən danışan adamam, amma Sizin qarşınızda danışa bilmirəm. Bu gün mənim sənətimin bütün tərəflərindən söz açdınız. Elə danışdınız ki, sanki məni böyük bir musiqiçi təriflədi, var olun. Çox sağ olun ki, bizim xalq musiqimizə, xalqımızın sənətkarlarına belə böyük hörmət edirsiniz. Var olun, var olsun Mehriban xanım. Vallah, Mehriban xanımın bizə gəlməyini mən indi də yuxu kimi bilirəm. Hamı deyir, bu, doğrudan da, çox böyük əks-səda doğurub. Hara gedirəmsə, hamı o görüşdən danışır. Allah saxlasın.

Mənim arzum budur ki, Allah-Təala Sizi xalqımıza, bizə çox görməsin. Allah Sizi qorusun ki, bizim xalqımız daha xoşbəxt olsun. Ölkəmiz gündən-günə inkişaf edir, gözəlləşir. Vallah, xariqələr yaradırsınız. Mən bakılıyam, Bakıda böyümüşəm, amma bugünkü Bakını tanıya bilmirəm. Vallah, mən qəlbən danışan adamam. Mən heç vaxt nə yalan danışmıram, nə də bir adama pislik etmirəm. Bu, mənim idealımdır. Odur ki, mən bundan böyük hörmət görməmişəm, görə də bilmərəm. Bir daha hər ikinizə "Sağ olun!" deyirəm, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Əlibaba müəllim.

**Əlibaba Məmmədov:** Sağ olun, Mehriban xanım.

**Mehriban Əliyeva:** Çox sağ olun, Əlibaba müəllim. Bütün Azərbaycan xalqı sizi çox istəyir.



**Prezident İlham Əliyev:** Bizim üçün çox əziz gündür ki, bu yüksək mükafatı Sizə təqdim edirik. Həmişə belə enerjili olasınız, yaratmaq üçün yaşayasınız.

**Əlibaba Məmmədov:** Sizin sayənizdədir, doğrudan belədir. Mən görməmişəm ki, xanəndəyə bu boyda hörmət olsun. Çox böyük hörmətdir.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz. Sizə verilən bu yüksək mükafat dövlət tərəfindən bu sənətə göstərilən diqqətdir. Çünki xalq kimi, millət kimi bizi əsrlərboyu qoruyan bizim sənətimiz olub. Çünki biz tariximizi yaxşı bilirik. Uzun illər - onilliklər, yüzilliklər ərzində müstəqillikdən məhrum olmuşuq, ancaq nə dilimizi, nə dinimizi, nə musiqimizi, nə də mənəviyyatımızı itirmişik. Bizi yaşadan bax, bunlardır - sənət, musiqi, ədəbiyyat, dil, milli dəyərlər. Muğam bütün bu amilləri özündə təcəssüm etdirir. Ona görə muğamı yaşatmaq bizim müqəddəs borcumuzdur. Biz də görürük, indi dünya musiqisində müxtəlif meyillər var, istər-istəməz bizim sərhədimizdən də keçir. Çünki bu, elə bir məsələdir ki, orada sədd qoya bilməzsən. Əgər gənclər öz milli dəyərlərindən, öz musiqisindən uzaqlaşsa, gələcəkdə onlar necə vətənpərvər ola bilərlər?! Gələcəkdə müstəqil Azərbaycanın maraqlarını necə qoruya bilərlər?! Gənclərdə milli ruh olmalıdır, milli ruhun mənbəyi də, o cümlədən bizim musiqimizdir. Xüsusilə muğam kimi ümumbəşəri sənətin beşiyi Azərbaycandır.

**Əlibaba Məmmədov:** Düzdür, doğrudan Azərbaycandır, bunu ucadan deyə bilirik. Mən bir münsif, bir muğam ifaçısı kimi həmişə bu sözü ucadan demişəm ki, muğam bizimdir. İnanmırsınız, gəlin baxın. Sağ olsun Mehriban xanım, dedi ki, muğam bizimdir. Bizim üçün mərkəz tikdirdi, muğama, müsabiqələrə yol açdı. O müsabiqələr bizi dünyaya tanıtdırdı. Bu müsabiqələrin şəxsən mənim özümə çox köməyi oldu. Doğrudan belə oldu. Ona görə də Siz var olun ki, bizim musiqimizi qoruyub saxlayırsınız. Ulu Öndərimiz həmişə deyərdi ki, muğam bizim milli sərvətimizdir. Bizim cənab Prezidentimiz də deyir ki, muğam bizim milli sərvətimizdir. Xanım da deyir ki, muğam bizim milli sərvətimizdir. Mən bir ağsaqqal kimi bir az muğamdan danışmaq istəyirəm. Muğam elə bir sənətdir ki, heç kim deyə bilmir bunu mən yaratmışam. Bunun yaradıcısı yoxdur. Əgər yaradıcısı olsaydı, bizim böyük sənətkarımız Üzeyir bəy bir sıra muğam yaradardı. Olmur, mümkün deyil. Bu, Allahdan gəlmədir, bu, ilahi musiqidir. "Qurani-Kərim" kimi, o da ilahi musiqidir. Ona görə bəzən özüm də təəccüblənirəm, görürsən uşaq elə bir hissə, elə bir guşə oxuyur ki, mən onu bilmirəm. Bu, onun özündən deyil, Allah tərəfindən gəlir. Odur ki, Sizin sayənizdə ucadan deyirik ki, muğam Azərbaycanındır, Azərbaycandan başqa heç yerdə belə bir muğam yoxdur.

**Prezident İlham Əliyev:** Düzdür.

**Mehriban Əliyeva:** Düz deyirsiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, Əlibaba müəllim.

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Mərkəzində təşkil edilən "Tarixin şah əsərləri" adlı sərgi ilə tanış oldular. Sərginin eksponatları Gürcüstan Milli Muzeyindəki Azərbaycan və Şərq kolleksiyalarından ibarətdir. Qeyd edək ki, Gürcüstan Milli Muzeyində Azərbaycana, o cümlədən İrəvan xanlığına aid minlərlə tarixi, mədəni artefakt var. İrəvan Azərbaycanın qədim torpağıdır və tarixi faktlar da azərbaycanlıların bu torpaqda daim yaşayıb-yaratdıqlarını göstərir. Prezident İlham Əliyev müxtəlif kürsülərdən dəfələrlə İrəvan xanlığı barədə tarixi həqiqətlərə əsaslanan faktlar söyləyib. Dövlət başçısının qeyd etdiyi kimi, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Bu, tarixdir, tarixi həqiqətdir. Bu sərgidəki eksponatlar da bunu bir daha aydın şəkildə nümayiş etdirir. İrəvan xanlığı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, eyni zamanda, gənc nəslin tariximizi daha yaxşı bilməsi üçün bu sərginin eksponatları olduqca mühüm məna kəsb edir.

Sərgidə 300-dək eksponat təqdim edilir. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən məişət əşyaları və rəsm əsərlərinin kolleksiyası, rus fotoqraf Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər nümayiş olunur. Yermakov İrəvan qalasının nadir tikililəri - Sərdar sarayı, məscidlər, karvansara və İrəvan şəhərinin tarixi mərkəzini təşkil etmiş orta əsrlərə aid digər binaların məhv edilməsi prosesini təfərrüatları ilə göstərən fotoşəkillər silsiləsini yaradıb. Burada Ermənistan tərəfindən məhv edilmiş İrəvan xanlığının sarayından qalan nadir rəsm əsərlərində Şah Qacar, İrəvan hökmdarları və Şərq eposlarının qəhrəmanları təsvir olunub. Sərdar sarayının arxeoloji qalıqları arasında İrəvan xanlığı və indiki Ermənistan ərazisində yaşamış Azərbaycan xalqına məxsus çox sayda gündəlik həyat atributlarından ibarət etnoqrafik kolleksiya da ekspozisiyada təqdim edilir.

Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, milli təsviri incəsənətimizin inkişafına böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin XIX əsrə aid yağlı boya ilə işlənmiş altı əsəri sərgilənir.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş "Live Life" sərgisi ilə tanışlıq oldu.

Dövlət başçısına və birinci xanıma sərginin məqsədi barədə məlumat verildi. Bildirildi ki, sərgi diqqəti ətraf mühit problemlərinə yönəldir. Bundan başqa, sərginin ideyaları arasında təbiətin qorunması və incəsənətin bu sahədə oynaya biləcəyi rolu da var. İndiyədək "Live Life" sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə təşkil olunub və çox böyük maraqla qarşılanıb. Ekspozisiyada nümayiş olunan 200-dən çox əsər orijinallığı və üslubu ilə seçilir.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Musiqi alətləri: birlik və müxtəliflik" adlı sərgi ilə tanış oldular.

Nadir layihə olan bu sərgidə müxtəlif ölkələrin XVIII-XX əsrlərə aid 170-dən çox musiqi aləti nümayiş etdirilir. Birlik və müxtəliflik prinsipinə əsaslanaraq bölmələrə ayrılan ekspozisiyada sərgilənən musiqi alətləri həm oxşarlığı, həm də fərqliliyi təcəssüm etdirir. Sərgidə hər bir musiqi alətini seyr etməklə yanaşı, onu dinləmək və ən əsası, həmin alətdə ifa xüsusiyyətləri ilə tanış olmaq imkanı var.

Növbəti tanışlıq məşhur fotoqraf, sovet fotoqrafiyasının klassiki Yakov Xalipin əsərlərindən ibarət "Avanqard davamçısı. Azərbaycan gündəliyi" adlı sərgi ilə oldu. Ekspozisiyada müəllifin 1930-1960-cı illərdə çəkdiyi 100-dən çox ən maraqlı fotolarından ibarət kolleksiyası təqdim edilir. Sərgidə Yakov Xalipin sovet fotoqrafiya sənətinin klassikası sayılan və "qızıl fond"una daxil edilmiş işləri ilə yanaşı, Azərbaycanda çəkdiyi fotoları da ilk dəfə nümayiş olunur. Sərgidə, həmçinin fotoqrafın ailəsinə aid arxivdən eksponatlar, müxtəlif sənədlər, yaratdığı tematik albomlar və digər maraqlı eksponatlar var.

# “Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493, № 10, maddə 968; 2006, № 7, maddə 588, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2009, № 4, maddə 233; 2010, № 2, maddə 80, № 7, maddə 620; 2012, № 12, maddə 1291; 2013, № 3, maddə 292; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2015, № 8, maddə 957; 2016, № 5, maddə 861, № 9, maddə 1518; 2017, № 11, maddə 2124; 2018, № 8, maddələr 1677, 1715; 2019, № 2, maddə 294) 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın sədri**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş Nazirinin müavini

**Komissiyanın üzvləri**

Azərbaycan-Avropa İttifaqı Parlament Əməkdaşlıq Komitəsinin həmsədri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin birinci müavini

Azərbaycan Respublikası Maliyyə nazirinin birinci müavini

Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini

Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini

Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası Energetika nazirinin müavini

Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini

Azərbaycan Respublikası Təhsil nazirinin müavini

Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədrinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman)

Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Avropa İttifaqı tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2020-ci il*

# Miri Əhəd oğlu Qənbərov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. “Azərkontrakt” Səhmdar Cəmiyyətinin sədri Miri Əhəd oğlu Qənbərov 2020-ci il fevral ayının 11-də ömrünün 85-ci ilində vəfat etmişdir.

Miri Qənbərov 1935-ci il mayın 25-də Lerik rayonunun Siyov kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1952-1954-cü illərdə Lənkəran kərpic zavodunda texnik-nəzarətçi və komsomol təşkilatının katibi işləmiş, 1954-1956-cı illərdə Bakı Kooperativ Texnikumunda oxumuş, 1959-1964-cü illərdə isə Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsində əmtəəşünaslıq ixtisası üzrə ali təhsil almışdır.

Miri Qənbərov 1956-cı ildən etibarən Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqı sistemində fəaliyyət göstərmiş, 1961-ci ilədək “Azərittifaq”ın mərkəzi aparatında əmtəəşünas və baş əmtəəşünas, 1961-1978-ci illərdə “Azərittifaq”ın təsərrüfat, tikinti və sənaye malları satışı idarəsində direktor və baş direktor, 1978-1979-cu illərdə yenidən “Azərittifaq”ın mərkəzi aparatında baş əmtəəşünas, 1979-1980-ci illərdə “Azərittifaq” İstehsalat İdarəsinin rəisi olmuş, 1980-1981-ci illərdə Bakı Şəhər Ticarət İdarəsində şöbə rəisi, 1981-1982-ci illərdə Bakı şəhərinin Oktyabr rayonunda ticarət idarəsinin direktoru, 1982-1994-cü illərdə Respublika İdman və Mədəni Mallar İdarəsinin baş direktoru işləmişdir.

Miri Qənbərov 1994-1997-ci illərdə Azərbaycan Respublikasının Ticarət naziri olmuş, 1997-ci ilin iyun ayından ömrünün sonunadək “Azərkontrakt” Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır.

Uzun illər boyu çalışdığı vəzifəsindən asılı olmayaraq, bütün sahələrdə Miri Qənbərov daim işgüzarlıq, peşəkarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Yüksək tələbkarlığı, dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona həmkarları arasında nüfuz və hörmət qazandırmışdır. O, müxtəlif dövrlərdə respublikada ticarət sisteminin təkmilləşdirilməsi və zamanın tələblərinə uyğun qurulması, habelə ölkəmizin ticarət və iqtisadi əlaqələrinin genişləndirilməsi üçün böyük əmək sərf etmişdir.

Miri Qənbərov respublikanın ictimai həyatında fəal iştirak etmiş, bir neçə çağırış Bakı şəhər Sovetinin deputatı olmuş və müstəqil Azərbaycan Respublikasının ikinci çağırış Milli Məclisinə üzv seçilmişdir.

Miri Qənbərovun uzunmüddətli əmək fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının iqtisadi inkişafındakı xidmətlərinə görə bir sıra orden və medallarla, eləcə də 2005-ci ildə ölkəmizin ali mükafatlarından olan “Şöhrət” ordeni ilə, 2010-cu ildə isə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilmişdir.

Tanınmış ictimai xadim və səmimi insan Miri Əhəd oğlu Qənbərovun əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Oqtay Əsədov, Samir Nuriyev, Şahmar Mövsümov, Natiq Əmirov, Eldar Əzizov***

# *Hikmət HACIYEV:* “Azərbaycan xalqı parlament seçkilərində bir daha öz iradəsini ifadə etdi”



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev fevralın 9-da ölkəmizdə keçirilən parlament seçkilərini izləmiş xarici müşahidəçilərin rəyləri ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.

**- Hikmət müəllim, fevralın 9-da Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçirildi. Seçkiləri izləmiş xarici müşahidəçilərin açıqladığı rəyləri necə qiymətləndirirsiniz?**

- Əvvəla, qeyd etmək istərdim ki, növbədənkənar parlament seçkiləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı genişmiqyaslı islahatlar siyasətinin tərkib hissəsidir və Azərbaycan xalqı seçkilərdə bir daha öz iradəsini ifadə etdi.

Düşünürəm ki, təkcə elə 1300-dən çox namizədin qeydə alınması faktı həm Azərbaycan cəmiyyətində seçkilərə böyük marağın və ən əsası, inamın olmasının, həm də onun rəqabətli şəraitdə keçməsinin bariz nümunəsidir. Cənab Prezidentin dediyi kimi, “əgər inam olmasaydı, bu adamlar bəlkə də seçkilərə qatılmazdılar”.

Azərbaycan hökuməti yenə də xoş niyyət nümayiş etdirərək parlament seçkilərini müşahidə etmək üçün qonşu dövlətlərdən tutmuş Latın Amerikasına qədər müxtəlif ölkələrə və Türk Şurası, Müstəqil Dövlətlər Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq təşkilatlara dəvət ünvanlamışdı. Fürsətdən istifadə edərək bizim dəvətimizi qəbul etdiklərinə görə onların hamısına öz təşəkkürümüzü bildiririk. Sevindirici haldır ki, beynəlxalq müşahidəçilərin mütləq əksəriyyəti seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçirildiyini vurğulayıblar.

**- ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) seçkilərə dair mövqeyi ilə bağlı nə düşünürsünüz?**

- Biz ATƏT/DTİHB-nin rəyi ilə də yaxından tanış olduq. Hesab edirəm ki, budəfəki dəyərləndirmədə konseptual bir fərq aydın surətdə sezilir. DTİBH-nin rəyi məzmunca siyasi bəyanat xarakteri daşımır və əsas vurğu prosedur-təşkilati məsələlərə yönəldilir. Yəni, çatışmazlıq kimi qələmə verilən məqamların, iradların əksəri məhz prosedur-təşkilati səciyyəlidir. Onlar lokal xarakter daşıyır və ümumi nəticələrə şamil olunmur. Xüsusi olaraq vurğulamaq istərdim ki, bəzi müxalifət nümayəndələrinin iddia etdiyi kimi, DTİBH-nin rəyində parlament seçkilərinin nəticələrinin şübhə altına alınması məsələsi yoxdur.

Məlum olduğu kimi, seçkidən dərhal sonra Mərkəzi Seçki Komissiyası iddia edilən bütün pozuntuların, o cümlədən videogörüntülərin ciddi şəkildə araşdırılacağını bildirmişdi.

Biz hər bir seçkini əvvəlki ilə müqayisədə tərəqqi, eyni zamanda, çatışmazlıqların aradan qaldırılması imkanı kimi görürük. Bu mənada, beynəlxalq öhdəliklərimizə uyğun olaraq beynəlxalq təşkilatlarla konstruktiv əsasda əməkdaşlığa həmişə hazırıq və DTİHB da daxil olmaqla, seçkiləri müşahidə etmiş bütün təşkilatların müvafiq təklif və tövsiyələri diqqətlə təhlil olunacaq.

Son olaraq vurğulamaq istərdim ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və Azərbaycan xalqı seçkilər vasitəsilə qanunvericilik hakimiyyəti ilə bağlı öz münasibətini açıqlayıb. Azərbaycan hakimiyyəti də öz növbəsində, demokratik, azad, şəffaf seçki keçirməklə bağlı siyasi iradəsini bir daha ortaya qoymuş oldu.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ixtioz, kəpənək və immundefisit xəstəliyindən əziyyət çəkən uşaqlarla görüşüb





Fevralın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ixtioz, kəpənək və immundefisit xəstəliyindən əziyyət çəkən uşaqlarla görüşüb. AZƏRTAC xəbər verir ki, paytaxtdakı Bona Dea Beynəlxalq Hospitalında keçirilən görüş zamanı Leyla Əliyeva uşaqların səhhəti və müalicələrinin gedişi ilə maraqlanıb.

Heydər Əliyev Fondunun dəstəyi ilə müalicə olunan uşaqlara hədiyyələr təqdim edilib.

# İqtisadi inkişaf ölkənin elektrik enerjisi ilə təchizatının daha etibarlı və dayanıqlı olmasını tələb edir

*Əvvəli 1-ci səh.*

Həmin yarımstansiyanın fəaliyyətə başlaması Xəzər və Pirallahı rayonlarının enerji ilə fasiləsiz və dayanıqlı təminatında mühüm rol oynayacaq. Son dövrlər bu iki rayonda çoxlu sayda sosial və biznes obyektləri fəaliyyətə başlayıb. Sözsüz ki, bunun sayəsində enerjiyə tələbat da artıb. “Dübəndi” yarımstansiyası bu sahədə olan çatışmazlıqların aradan qaldırılmasına imkan verəcək.

Bu yarımstansiyada daha güclü transformatorlar quraşdırılıb, mikro SCADA sistemi yaradılıb. Görülən tədbirlər sayəsində güc defisiti aradan qaldırılmaqla yanaşı, etibarlıq və dayanıqlıq təmin edilib. Burada quraşdırılan avadanlıqların açıq tiplidən qapalı tipliyə keçirilməsi yarımstansiyanı atmosfer şəraitinin təsirinə məruz qalmaq təhlükəsindən qoruyur. Həyata keçirilən yenidənqurma zamanı 63 MVA gücündə iki yeni transformator bina daxilində yerləşdirilib ki, bunun da sayəsində yarımstansiyanın gücü 126 MVA-ya çatdırılıb. Onu da qeyd edək ki, bu yarımstansiya Bakıətrafı kənd və qəsəbələrin çox hissəsini, Pirallahı Sənaye Parkını, qaçqın və məcburi köçkün şəhərciyini, kabel zavodunu, “Zirə Ekopark” kompleksini və digər yerli əhəmiyyətli obyektlərin enerji ilə təminatında mühüm rol oynayacaq.

Prezident İlham Əliyev stansiyanın açılış mərasimində ölkədə bu istiqamətdə görülən işləri yüksək qiymətləndirərək demişdir: “Dübəndi” yarımstansiyası indi bütün yüksək standartlara cavab verir və böyük ərazini elektrik enerjisi ilə qidalandıracaq. Əvvəlki yarımstansiyanın vəziyyəti çox acınacaqlı idi, demək olar ki, sıradan çıxmışdı. Ona görə yeni yarımstansiyanın tikintisi zəruri idi və bunu da “Azərenerji” yüksək səviyyədə təşkil edib... Son illərdə bu sahəyə göstərilən diqqət elə vəziyyət yaradıb ki, Azərbaycan artıq enerji təminatçısına çevrilib. Əvvəlki dövrlərdə biz idxaldan asılı idik. İndi isə öz tələbatımızı tam təmin edib, hətta ixrac da edirik”.

Elektrik enerjisi sahəsində də infrastrukturun təkmilləşdirilməsi istiqamətində mühüm layihələr icra edilir. Məlum olduğu kimi, ötən il “Şimal-2” elektrik stansiyası istifadəyə verilmişdir. Bu stansiyanın istehsal gücü 400 meqavatdır. Bununla yanaşı, Mingəçevir İstilik Elektrik Stansiyasında və digər stansiyalarda aparılan təmir-bərpa işləri nəticəsində təxminən 400 meqavat itirilmiş generasiya gücü bərpa edilmişdir. Görülən işlər sayəsində keçən il 800 meqavat əlavə generasiya gücü yaradılmışdır. Beləliklə, ölkəmizin daxili tələbatı ödənildikdən sonra 1000 meqavat artıq generasiya gücü yaranmışdır ki, bu da enerjinin ixracından 60 milyon dollar gəlir əldə etməyə imkan verir.

Ölkəmizdə müasir texnika və texnologiyalardan istifadə etməklə alternativ enerjinin əldə edilməsinə də böyük diqqət ayrılır. Keçən ilin sonunda Bakıda iki böyük investorla iki layihənin icrası üzrə müqavilə imzalanmışdır. Bu, ölkəmizdə bərpa olunan enerji növlərinin yaradılması istiqamətində mühüm addımdır. Həmin müqavilələrin şərtlərinə görə, iki böyük elektrik stansiyası tikiləcək - biri külək, digəri günəş. Birlikdə gücü 440 meqavat nəzərdə tutulan bu stansiyalar regionun ən böyük analoji obyektləri olacaq. Onu da qeyd edək ki, bu layihə bütünlükdə investorların vəsaiti hesabına reallaşacaq.

Məlum olduğu kimi, ölkəmizdə bərpa olunan enerji növlərinin yaradılması üçün başqa layihələr də icra edilir. 50 meqavatlıq belə stansiyalardan biri istismara verilib. 84 meqavatlıq yeni stansiyanın layihələndirilməsi işləri isə başa çatmaq üzrədir. Yeri gəlmişkən qeyd edək ki, ölkəmizin enerji balansında bərpa olunan enerjinin payı hazırda təqribən 17-18 faizdir. Bu istiqamətdə həyata keçirilən uzunmüddətli strategiyaya uyğun olaraq, hədəf həmin göstəricini 30 faizə çatdırmaqdır. Azərbaycanda günəş və külək enerji stansiyalarının qurulması üçün kifayət qədər əlverişli yerlərin mövcudluğu buna imkan verir. Onu da qeyd edək ki, Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan enerjinin əlçatanlığına görə dünyada ikinci yerdə qərarlaşıb.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Azərbaycana dünyada maraq və rəğbət artıb

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı kimi ilk dəfə 2007-ci ilin yanvarında Davos Forumunda iştirak edən cənab İlham Əliyev 2020-ci ildə 14-cü dəfə bu mötəbər toplantıda iştirak etdi. Bu, həm, Azərbaycana göstərilən yüksək etimad idi, həm də ölkə rəhbərinin Dünya İqtisadi Forumunda fəal iştirakı, maraqlı və strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdiyi çoxsaylı və yüksəksəviyyəli işgüzar görüşləri maraqla qarşılandı.

Davosda cənab İlham Əliyevin dünyanın tanınmış şirkət rəhbərləri ilə keçirdiyi çoxsaylı görüşlər, bu görüşlərdə səslənən fikirlər də təsdiq edir ki, həm dünya dövlətlərinin, həm də beynəlxalq şirkətlərin Azərbaycana böyük rəğbəti var. Azərbaycanın xarici investisiya üçün cəlbedici olması təsadüfi deyil. Çünki respublikamızda əcnəbi investorların səmərəli fəaliyyəti məqsədilə hər cür şərait, xüsusilə mükəmməl qanunvericilik bazası yaradılıb, “açıq qapı” siyasəti prioritet istiqamət kimi qəbul edilib. Bundan başqa, son illər Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 50-dən çox saziş imzalanıb. Avropa İttifaqının 20-dən çox ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb. Ölkəmizə ən çox investisiya qoyan xarici şirkətlərin əksəriyyəti isə dünyanın 20 ən böyük ölkəsindən gəlir. Onların arasında Rusiya Federasiyası, Türkiyə, İtaliya, Almaniya, Böyük Britaniya, ABŞ, Yaponiya və digər ölkələr var.

2007-ci ildən başlayaraq Davos Forumunda mütəmadi olaraq iştirak edən cənab İlham Əliyev ölkəmizdə investorlar üçün yaradılan şəraiti və imkanları dünyaya bəyan edir. Həqiqətən də, məhz cənab İlham Əliyevin bu uğurlu diplomatiyası nəticəsində 2007-ci ilin əvvəli ilə müqayisədə 2019-cu ildə ölkə iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluğun səviyyəsi 4 dəfədən çox, işsizliyin səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq 4,9 faizə çatıb. Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

2007-ci ildən keçən dövr ərzində Azərbaycana 111 milyard dollardan çox xarici investisiyanın cəlb olunması deyilənləri təsdiqləyən reallıqdır. Əgər Davos İqtisadi Forumunun açıqladığı “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan 2006-2007-ci ildə 64-cü yerdə idisə, 2017-2018-ci ildə 137 ölkə arasında 35-ci yerə qədər yüksəldi. 2019-cu ildə isə Azərbaycan “Əhalinin elektrik təchizatı səviyyəsi” üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında, “Hökumət tənzimləməsinin yükü” və “Əcnəbi işçilərin işə qəbulunun asanlığı” üzrə 3-cü yerdə, “Hökumətin dəyişməyə cavabdehliyi” üzrə 5-ci yerdə, “Biznesə başlama üçün tələb olunan günlərin sayı” üzrə 8-ci yerdə, “Hökumətin uzunmüddətli strategiyası” üzrə isə 10-cu yerdə qərarlaşdı.

Bu gün Azərbaycan həm də dünyanın əsas enerji ixracatçılarından biridir. Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilən ölkəmiz Şimaldan Cənuba və Şərqdən Qərbə yüklərin daşınmasında mühüm nəqliyyat qovşağı kimi tanınır. 2017-ci ilin oktyabr ayında istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu, 2018-ci ilin may ayından fəaliyyət başlayan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu istiqamətdə həyata keçirilən proseslərə böyük töhfə verir.

Ötən 16 ildə Azərbaycan enerji layihələrini uğurla həyata keçirməyə davam edib. Avropaya qaz təchizatının şaxələndirilməsi istiqamətində Azərbaycan “Cənub qaz dəhlizi” layihəsini reallaşdırıb. Uzunluğu 3500 kilometr olan bu layihə Xəzər regionundan qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişdirir. Bu layihə Avropaya qaz nəqlinə alternativ kimi deyil, Avropaya qaz təchizatının şaxələndirilməsi məqsədilə həyata keçirilib. Ümumi kapital qoyuluşu 40 milyard dollar layihə 4 hissədən ibarətdir - “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP. Bu il layihə tam olaraq fəaliyyətə başlayacaq.

Azərbaycanın həyata keçirdiyi uğurlu enerji strategiyası ölkəmizin müstəqilliyinin, iqtisadi inkişafının təməli olmaqla bərabər, beynəlxalq və regional müstəvidə enerji təhlükəsizliyinə böyük töhfə verir. Cənab İlham Əliyevin praqmatik xarici siyasət kursu ilk növbədə ölkəmizin milli maraqlarının təmin olunmasına xidmət edir. 2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan qlobal məsələlərin həllində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək beynəlxalq münasibətlər sisteminin fəal üzvü kimi tanınıb. Elə həmin il Qoşulmama Hərəkatına daxil olmaqla Azərbaycan öz xarici siyasətinin yeni vektorlarını müəyyənləşdirib, Latın Amerikası və Afrika ölkələri ilə səmərəli əməkdaşlıq əlaqələri qurmağa başlayıb.

Azərbaycan, eyni zamanda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə regionda və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfə verir. Buna görə də ölkəmiz hazırda regional güc mərkəzi kimi sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də bu məsələyə toxunaraq vurğulamışdır ki, il ərzində dünyanın müxtəlif yerlərində gərginliyin artması, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması - bütün bunlar dünyanın, demək olar, bütün yerlərində müşahidə olunub. Azərbaycan isə 2019-cu ildə davamlı inkişafda olan sabitlik məkanı kimi böyük uğurlar qazanıb. Həyata keçirilən mütərəqqi islahatlarla bu gün Azərbaycan yüksəlişdədir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR AZƏRBAYCANIN SEÇKİ TƏCRÜBƏSİNİ YÜKSƏK DƏYƏRLƏNDİRDİLƏR

# Obyektiv və rəqabətli

## Beynəlxalq müşahidəçilər parlament seçkilərini Azərbaycanda demokratiya yolunda mühüm addım kimi qiymətləndirdilər

Əvvəli 1-ci səh.

Ölkədə keçirilən hər bir seçki demokratiya yolunda irəliyə doğru atılmış mühüm bir addım kimi qiymətləndirilib. Bu dövr ərzində seçkilərin həm qanunvericilik, həm maddi-texniki bazası yüksək səviyyəyə qaldırılıb və bütün bu göstəricilər beynəlxalq ekspertlər tərəfindən dəyərləndirilib. Elə VI çağırış Milli Məclisə seçkilərə hazırlıq, seçki prosesi, xalqın seçkilərə münasibəti də beynəlxalq ekspertlər tərəfindən çox yüksək qiymətləndirildi. Beynəlxalq təşkilatların, ayrı-ayrı qurumların müşahidə missiyalarının rəylərinə nəzər yetirsək, bunu aydın şəkildə görərik.

### “Azərbaycanda demokratiyanın bu qədər yüksək səviyyədə olması bizi sevindirir”

“Azərbaycan xalqına təşəkkür edirik. Onlar sabahına sahib çıxaraq istədikləri namizədə səs verdilər”. Bu fikirləri Türkiyə Böyük Millət Məclisinin Müşahidə Missiyasının üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun rəhbəri Şamil Ayrım söylədi. Onun sözlərinə görə, seçkilərdə çoxlu sayda gəncin iştirak etməsi mütərəqqi addımdır: “Siyahıda çoxlu sayda gəncin olması bizi sevindirir. Qafqazın parıldayan ulduzu Azərbaycanın daha da güclü olmasını diləyirəm”.

TBMM-in üzvü Orhan Erdem isə bildirdi ki, seçki günündə iki qrupa ayrılaraq Bakı və Sumqayıtda müşahidələr aparıb, bir gün əvvəl isə Qubada seçkiyə hazırlıq prosesini izləyiblər: “Seçkilərin çox sakit və rahat şəkildə keçdiyinin şahidi olduq. Əsas diqqətimizi çəkən seçki məntəqələrində heç bir polis və hərbi formada olan insanların olmaması idi. Bu, özü də insanların rahatlıqla səs verdiyini göstərirdi. Qısa müddətdə Azərbaycanda demokratiyanın bu qədər yüksək səviyyədə olması bizi sevindirir”.

TBMM-in dügər üzvü Yunus Kılıç isə hesab edir ki, 1300-dən çox namizədin, 19 partiyanın iştirakçı olması seçkinin obyektiv və rəqabətli keçməyini göstərir: “Seçki məntəqələrində kameraların olması, müşahidəçilərin prosesi istənilən yerdən izləyə, seçicilərin istənilən kabinədə səs verə bilməsi və ümumilikdə təşkilatçılıq yüksək səviyyədə idi: “Azərbaycan seçkini izləmək üçün çoxlu sayda beynəlxalq müşahidəçi dəvət edib. Bu, özü Azərbaycanın açıq və şəffaf olduğunu göstərir. Məntəqələrdə hər kəs seçki prosesini rahat şəkildə müşahidə edə bilirdi”.

Onun fikrincə, namizədlərin seçkiyə qədər ev-ev gəzərək özlərini tanıtması demokratiyanın göstəricisidir.

TBMM-in digər üzvü Uğur Bayraktutan seçki məntəqələrində kameraların olmasını, seçicilərin sərbəst səs verə bilməsini, polislərin məntəqələrdə olmamasını çox yüksək dəyərləndirdi: “Mənə ən çox təsir edən seçki qutularının yanında Azərbaycan bayraqlarının olması idi. Bundan çox təsirləndim, Türkiyəyə geri döndə seçki zamanı bayraqların qutunun yanına qoyulmasını təklif edəcəyəm. Bütün Azərbaycan xalqına, namizədlərə təşəkkür edirəm və Azərbaycanın gələcəyinin aydın olmasını diləyirəm”.

GUAM Parlament Assambleyasının müşahidə missiyasının üzvü, ukraynalı deputat Maryan Zablotski isə dedi ki, Azərbaycanda parlament seçkiləri beynəlxalq standartlara və ölkə qanunvericiliyinə uyğun şəkildə həyata keçirilib. Seçicilərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün hər cür şərait yaradılıb.

### Seçkilər beynəlxalq standartlara uyğun olaraq keçirildi

“Azərbaycanda Milli Məclisə seçkilərdə demokratik şərait yaradılıb, seçkilərin keçirilməsində beynəlxalq və ölkə qanunlarına əməl edilib, namizədlərin mətbuata çıxışına, seçicilərlə görüşünə bərabər şərait mövcud olub”.

Bu fikirləri seçkilərlə əlaqədar keçirdiyi mətbuat konfransında TÜRKPA müşahidə missiyasının rəhbəri İsmet Uçma söylədi. Müşahidə missiyasının həm Bakı, həm Şamaxı, həm də Qobustanın əksər məntəqələrində səsvermə prosesini izlədiyini vurğulayan diplomat bildirdi ki, müşahidə missiyası məntəqələrin komissiya sədrləri və seçicilərlə görüşüb, qadın və gənclərin istər namizəd, istərsə də seçici kimi iştirak etdiyini müəyyən edib: “Bunun bu qədər yüksək olması Azərbaycanda təməl haqq və azadlıqların nə qədər vacib olması baxımından əhəmiyyətlidir. Səsverməyə gələnlərin sevincli olduğunu gördük. Bununla deyə bilərik ki, seçki prosesi şəffaf keçirilib. Heyətimiz heç bir pozuntu halına rast gəlməyib. Biz Milli Məclisə seçkilərin beynəlxalq standartlara və hüquqa uyğun olaraq keçirildiyinə qərar vermişik. Azərbaycan dövlətinə bizə müşahidə prosesini aparmaq üçün yaratdıqları şəraitə görə təşəkkür edirəm”.

### “Seçicilər azad şəkildə öz seçimlərini edirdilər”

Belarus parlamentinin müşahidə missiyasının rəhbəri Sergey Raçkov keçirdiyi mətbuat konfransında dedi ki, Azərbaycanda seçkiyə hazırlıq səviyyəsi də, namizədlər üçün yaradılan şərait də çox yaxşı idi. Bu da şəffaflığın və ədalətli seçkinin olduğunu göstərirdi. Bunu seçki günü vənəndaşların məntəqələrə gələrək səsvermə prosesində iştirakı da bir daha təsdiqlədi: “Seçicilər azad şəkildə öz seçimlərini edirdilər. Onlar məntəqələrdə heç bir təsirə məruz qalmırdılar. Əksər məntəqələrdə “exit-poll” təşkil olunmuşdu”.

Almaniyanın Bavariya bölgəsi parlamentinin deputatı Uli Henkelin də fikirləri maraqlı oldu. Deputat mətbuata açıqlamasında dedi ki, bütün suallarına seçki məntəqələrində cavab tapıb: “Heç kim bizə problem yaratmadı. Bu, bizim üçün önəmli idi. Hər şey gözlədiyimiz kimi oldu. Seçkilər demokratik və şəffaf keçdi. Seçki məntəqələrində çox sayda seçici və müşahidəçi var idi. Bu xüsusi olaraq diqqətimi cəlb etdi”.

Seçki günü 4 məntəqədə müşahidə aparan Yunanıstan parlamentinin deputatı Lazaros Tsavdaridis isə dedi ki, olduğu məntəqələrin hər birində seçicilər, müşahidəçilər, siyasi partiyaların nümayəndələri və könüllülərlə söhbətləşib. Seçki prosesi onlarda xoş təəssürat yaradıb.

### “Yaşlı insanların seçkilərə gələrək səs verməsi sadəcə valehedici idi”

İsraildən olan beynəlxalq müşahidəçi Roman Gureviç seçkilərin şəffaf və demokratik şəraitdə keçdiyini bildirdi. Seçkidən bir neçə gün əvvəl Bakıya gəldiyini deyən müşahidəçi 6 seçki məntəqəsində müşahidə aparıb. Daha çox gənclərin seçkilərə maraq göstərdiyinin şahidi olub: “Gənclərin səsverməyə həvəsi çox müsbət haldır. Müşahidə apardığımız məntəqələrdə hər hansı qanun pozuntusu ilə rastlaşmadıq”.

Seçkilərin nəticələri ilə bağlı fikirlərini bölüşən digər müşahidəçi Boris Qrosman qeyd edib ki, artıq Azərbaycanda keçirilən seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsinə ehtiyac yoxdur. “Hesab edirəm ki, siz artıq özünüz başqa ölkələrdə müşahidəçi kimi iştirak edə bilərsiniz. Yaşlı nəslin nümayəndələrinin seçkilərə gələrək səs verməsi sadəcə valehedici idi. Belə soyuq, şaxtalı və küləkli havada seçicilərin fəal olacaqlarına ümidimiz az idi. Lakin hər şey gözlədiklərimizin əksinə oldu”.

MDB-nin Parlamentlərarası Assambleyası Şurasının müşahidə missiyası 15 seçki məntəqəsində müşahidə aparıb. Belaruslu deputat İqor Komarovski keçirdiyi mətbuat konfransında seçkilərin seçicilərin yüksək fəallığı şəraitində sakit keçdiyini söylədi.

Müşahidəçinin sözlərinə görə, seçkilərdə müxtəlif partiyaların və namizədlərin təmsilçisi olan yerli müşahidəçilərin çoxluğu müsbət amildir. Onların hamısının səsvermənin gedişatını izləmək imkanı var: “Biz onlarla ünsiyyət quraraq çox ciddi problem və iradların olmadığını öyrəndik. Azərbaycanda seçki məntəqələrinin hər biri qanunvericiliyin bütün tələblərinə, məhz ümumxalq, bərabər və demokratik seçkilərin keçirilməsi standartlarına cavab verir”.

### “Dairə komissiyalarında işi qüsursuz təşkil ediblər”

MDB PA-nın müşahidəçilər missiyasının üzvü Aleksandr Başkin isə parlament seçkilərinin respublikanın qanunvericiliyinə və beynəlxalq normalara ciddi şəkildə əməl edilməklə keçirildiyini dedi: “Bir neçə məntəqədə olduq. Seçki məntəqələrində olan mehriban və sakit ab-hava diqqətimizi cəlb etdi. Hansısa münaqişəli və mənfi hallar yaşanmayıb. Bununla yanaşı, bir-birinə rəqib olan müxtəlif partiyalardan və namizədlərdən çoxlu sayda müşahidəçi var. Bu prosesə ümumi münasibət çox pozitiv və məsuliyyətlidir. Bununla belə, onlardan heç biri hansısa pozuntunu müşahidə etməyib, müvafiq şikayət daxil olmayıb. Seçicilər tərəfindən də heç bir şikayət yoxdur. Mən Azərbaycanın Seçki Məcəlləsinə yaxşı bələdəm və görürəm ki, qanunvericiliyin tələb etdiyi hər şey dəqiqliyi ilə yerinə yetirilir”.

Rusiya Dövlət Dumasının deputatı, MDB PA-nın müşahidəçisi Kazbek Taysayev MSK-ya təşəkkür etdi: “Mən Mərkəzi Seçki Komissiyasına kadrların hazırlanmasına görə təşəkkürümü bildirmək istəyirəm. Onlar öz növbəsində dairə komissiyalarında işi qüsursuz təşkil ediblər. Biz bir çox məntəqələrdə olduq. Seçicilər üçün bütün şərait yaradılıb. Heç bir pozuntuya rast gəlməmişik”.

MDB PA-dan olan digər müşahidəçi Qaqauz Flodor öz növbəsində bəyan etdi ki, Azərbaycanda seçkilər prosedur baxımından kifayət qədər mütəşəkkil keçib: “Bizim olduğumuz bütün seçki məntəqələrində kifayət qədər müşahidəçi var idi. Mənim müşahidələrimə görə, səsvermədə yaşlı nəslin nümayəndələri xüsusi fəallıq göstərirdilər. Seçicilərin fəallığı onu göstərir ki, vətəndaşların əksəriyyəti öz ölkələrinin gələcəyi üçün, parlamentə seçəcəkləri şəxslər üçün məsuliyyət hissini dərk edirlər”.

Şanxay Əməkdaşlıq Təşkilatının seçki müşahidə missiyasının rəhbəri, baş katibin müavini Sherali Saidamir Jonon isə qeyd etdi ki, məntəqələrdə seçicilərlə yanaşı, namizədlərin nümayəndələri və digər müşahidəçilərlə söhbətləşiblər. Azərbaycan Xarici İşlər Nazirliyinin dəvəti əsasında seçkiləri müşahidə üçün ölkəyə gəldiklərini bildirən baş katibin müavini deyib ki, müşahidə apardıqları məntəqələrdə seçkilərə hazırlıq prosesi onlarda xoş təəssüratlar yaradıb.

Beləliklə, beynəlxalq müşahidə missiyalarının, xarici qonaqların fikirlərinə əsaslanaraq deyə bilərik ki, parlament seçkiləri Azərbaycanda demokratiya yolunda irəliyə atılmış mühüm bir addımdır. Parlament seçkiləri Azərbaycanın seçki praktikasında tətbiq edilən və prosesin demokratikliyinə xidmət edən yeniliklərlə əlamətdar olub.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## *Rusiyalı deputatlar və ekspertlər:*

## “Azərbaycanda seçkilər dürüst, ədalətli, azad və şəffaf olub”

Azərbaycan Respublikası Milli Məclisinə seçkilər dürüst, ədalətli, azad və şəffaf olub və mövcud qanunvericiliyə uyğun keçirilib.

AZƏRTAC xəbər verir ki, bu rəy “Sotrudniçestvo” beynəlxalq münasibətlər institutunun müşahidə missiyasının fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasında parlament seçkilərinə dair hesabatında yer alıb. Missiyanın tərkibinə Dövlət Dumasının deputatları Aleksey Juravlyov, Sergey Marinin, Yelena Strokova, Boris Çernışov, Maksim İvanov, ekspertlər Lyudmila Kozlova, Oleq Kuznetsov, Yevgeni Kondraxin, Yelena Brızqalina, Valeri Fyodorov, Sergey Voronin, Yelena Marinina, Sergey Markov, Darya Qrevtsova, Ramin Qasımov, Aleksey Bıçkov daxil olublar.

AZƏRTAC-a daxil olmuş hesabatda deyilir ki, müşahidəçilər qrupu öz missiyasına fevralın 7-də başlayıb. Onun fəaliyyəti müvafiq beynəlxalq qaydalara və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanır. Müşahidə missiyası zamanı qrup Mərkəzi Seçki Komissiyası, yerli və beynəlxalq müşahidəçilərlə sıx əlaqə saxlayıb, açıqlıq və şəffaflıq prinsiplərini rəhbər tutub. Müşahidəçilər qrupunun ofisi Bakıda olub.

Müşahidəçilər qrupunun hesabatında qeyd olunub ki, seçicilər, müşahidəçilər və polislər üçün seçkilərə dair bir sıra informasiya xarakterli kitab və materiallar çap edilib, həmçinin seçkiqabağı kampaniya zamanı reklam və izahat layihələri həyata keçirilib, KİV-də elanlar yerləşdirilib.

Seçicilər, müşahidəçilər və digər maraqlı şəxslər seçkilər haqqında (**www.msk.gov.az**, **www.cec.gov.az**, **www.infocenter.gov.az**) internet saytlarında zəruri informasiyaları almaq imkanlarına malik olublar.

Qeyd olunub ki, Seçki Məcəlləsinə uyğun olaraq, seçicilərin tam siyahısı seçki məntəqələrində və Mərkəzi Seçki Komissiyasının dairələrində saxlanılıb. Siyahılar iki nüsxədə çap olunub və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 46-cı maddəsinə uyğun olub.

Seçicilərin siyahısı tanış olmaq üçün həm də MSK-nın saytında və seçki dairələrindəki stendlərdə yerləşdirilib. Hər bir seçici öz adının siyahıda olmasını, şəxsi məlumatlarını (ad, soyad, atasının adı, doğum tarixi, seçki məntəqəsinin sayı) göstərməklə bilavasitə yerində və ya axtarış sistemi vasitəsilə yoxlaya bilib. Seçki məntəqələri üzrə bütün zəruri məlumatlar, xəritələr, nəqliyyat sxemi seçicilərin rahatlığını təmin etmək məqsədilə saytlarda yerləşdirilib. Hər hansı pozuntuların aşkar edilməsi zamanı seçicilər “115” qaynar xəttinə zəng edə və ya onlayn müraciəti doldurmaqla MSK-ya müraciət ünvanlaya bilib. Daxil olan bütün müraciətlərə baxılıb və müvafiq tədbirlər görülüb. Seçicilər öz adlarının seçici siyahısında olmaması ilə əlaqədar həm də dairə seçki komissiyalarına müraciət edə biliblər.

“Sotrudniçestvo” beynəlxalq münasibətlər institutunun müşahidə missiyasının olduğu bütün seçki məntəqələri səsvermə üçün qutularla, kabinələrlə, masalarla, dəftərxana ləvazimatı və bütün zəruri avadanlıqlarla təmin edilib. Səsvermə üçün qutular onların doluluğunu görmək üçün yetərincə şəffaf olub. Daxil olmuş informasiyalara uyğun olaraq, minə yaxın seçki məntəqəsində onlayn vebkameralar quraşdırılıb. Müşahidəçilər qrupu namizədlər, bülletenlərin doldurulması və Seçki Məcəlləsinin pozulmasına görə cinayət və inzibati məsuliyyət barədə məlumatlar olan xüsusi stendlərin mövcudluğunu qeyd edib.

Hər bir seçici şəxsən və təklikdə səs verib. Bülletenlər heç kimin daxil olmağa ixtiyarı olmayan kabinələrdə doldurulub və gizli səsvermə üçün bütün xüsusi texniki vasitələrə malik olub. Məntəqə seçki komissiyalarının üzvləri və müşahidəçilər heç bir maneə və təzyiq olmadan fəaliyyət göstəriblər. Səsvermənin keçirildiyi müxtəlif məntəqələrdə müşahidələr zamanı seçicilərin iradəsinə təsir göstərilməsi və ya səsvermənin gizliliyinin pozulması halları aşkar edilməyib.

Bundan başqa, məntəqə seçki komissiyaları tərəfindən səhhəti ilə bağlı seçki məntəqəsinə gələ bilməyənlər üçün imkanlar yaradılıb. Bu məqsədlə seçki məntəqələrində daşınan qutular olub.

Bəzi tək-tük nöqsanlar və çatışmazlıqlar səsvermənin gedişatına və seçicilərin öz seçimini azad yerinə yetirməsinə heç bir təsir göstərməyib.

Müşahidəçilər qrupunun üzvləri seçki məntəqələrinin bağlanılması, səslərin sayılması və səsvermənin yekunlarına dair protokolların tərtibi proseslərini izləyiblər və qeyd ediblər ki, bütün proses ölkənin seçki qanunvericiliyinin tələblərinə müvafiq şəkildə aparılıb.

“Sotrudniçestvo” beynəlxalq münasibətlər institutunun Azərbaycan Respublikasında 2020-ci il fevralın 9-da keçirilmiş parlament seçkilərinə verdiyi qiymət onun üzvlərinin öz müşahidələri, qısamüddətli və uzunmüddətli monitorinq zamanı toplanmış qanunvericiliyin, material və informasiyaların öyrənilməsi və təhlilinə əsaslanıb.

“Azərbaycan Respublikasında 2020-ci il fevralın 9-da keçirilmiş parlament seçkilərinin monitorinqinin gedişində səsvermənin nəticələrinə təsir edə biləcək seçki qanunvericiliyinin pozulması halları qeydə alınmayıb. Ümumilikdə seçkilər Azərbaycan Respublikasının seçki qanunvericiliyinə və hamı tərəfindən tanınan demokratik normalara müvafiq şəkildə keçirilib.

Bütün bunları nəzərə alaraq seçkilərin dürüst, ədalətli, azad və şəffaf olduğunu və qüvvədə olan qanunvericiliyə uyğun şəkildə keçdiyini söyləmək olar”, - deyə hesabatda qeyd olunur.

## Avropa İttifaqı dialoqun davam etdirilməsini və Azərbaycan təsisatları ilə, o cümlədən yeni seçilmiş parlamentlə sıx işləməyi səbirsizliklə gözləyir

Avropa İttifaqı Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, sənəddə Avropa İttifaqı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) ilkin qiymətləndirməsini bölüşdüyünü bəyan edir. Bildirilir ki, Avropa İttifaqı bütün vətəndaşların mənafeyi naminə dialoqun davam etdirilməsini və Azərbaycan təsisatları ilə, o cümlədən yeni seçilmiş parlamentlə sıx işləməyi səbirsizliklə gözləyir.

## Özbəkistanın milli informasiya agentliyi Azərbaycanda keçirilən parlament seçkilərindən yazıb




Özbəkistanın UzA Milli İnformasiya Agentliyi Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı geniş material dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə seçkilər haqqında ətraflı məlumat yer alıb. Bildirilir ki, 5573 seçki məntəqəsinin 1000-də veb-kamera quraşdırılıb. Özbəkistan Mərkəzi Seçki Komissiyası sədrinin müavini Maxmud İstamovun rəhbərlik etdiyi nümayəndə heyəti seçkiləri Bakı və Şirvan şəhərlərində, həmçinin Şamaxı rayonunda izləyib. Özbəkistan nümayəndələri mətbuata müsahibələrində seçkilərin açıq, demokratik və şəffaf keçirildiyini bildiriblər. Qeyd olunub ki, hakim Yeni Azərbaycan Partiyası seçkilərdə qələbə çalıb. Azərbaycan Milli Məclisi 125 deputatdan formalaşır və 5 il müddətinə seçilir.

## *Avropa ölkələrinin deputatları və ekspertləri:*

## “Azərbaycanda seçkilər dünyada qəbul edilmiş demokratik normalara uyğun keçirilib”

Avropanın bir sıra ölkələrinin, o cümlədən İtaliya, Almaniya, Fransa, Polşa, Bolqarıstan, Çexiya, Yunanıstan parlamentlərinin deputatları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və ekspertləri fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə hesabat yayıblar.

AZƏRTAC xəbər verir ki, hesabatda italiyalı deputatlar Osvaldo Napolinin, Ettore Liçerinin və ekspert Angela Krovettinin, almaniyalı deputatlar Ulriç Singerin, Uli Henkelin, fransalı deputat Jan-Luc Reitzerin, ekspert Qregori Jullienin, bolqarıstanlı deputatlar Rumen Geçevin, Manol Genovun, Anton Kutevin, polşalı deputat Katarzina Ueberhanın və ekspert Janusz Niedzvieçkinin, çexiyalı deputatlar Vera Prohazkovanın, Yaroslav Doubravanın, ekspert Rania Younisovanın, yunanıstanlı deputatlar Lazaros Tsavdaridisin, Katerina Monogiounun və Stella Biziounun rəyləri yer alıb. Adları çəkilən parlamentarilər və ekspertlər fevralın 7-dən 10-dək Azərbaycanda olub, seçkiqabağı vəziyyətlə tanış olub, səsvermənin gedişini izləyiblər.

Yayılan hesabatda qeyd edilir ki, müşahidə missiyasının fəaliyyəti müvafiq beynəlxalq qaydalara və Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsaslanıb. Seçkilərin monitorinqi zamanı müşahidə missiyası Azərbaycanda yerli və beynəlxalq monitorinq qrupları ilə mütəmadi əlaqə saxlayıb, şəffaflıq və aşkarlıq prinsiplərinə riayət edib.

Avropalı deputatlar və ekspertlər seçkiqabağı vəziyyətlə əlaqədar bildiriblər ki, seçicilər, müşahidəçilər, polislər üçün məlumat kitabçaları və digər materiallar hazırlanıb, seçkiqabağı müddətdə kütləvi informasiya vasitələrində təbliğat-təşviqat layihələri həyata keçirilib. Həmçinin namizədlərə televiziya və radio kanallarında, qəzetlərdə ödənişli əsaslarla təşviqat aparmaq üçün imkan yaradılıb. Seçkilərlə bağlı kütləvi tədbirlərin və seçkiqabağı təşviqat kampaniyasının həyata keçirilməsi məqsədilə açıq və qapalı yer ayrılıb. Seçicilər, müşahidəçilər və seçkilərlə maraqlanan digər şəxslər seçki ilə bağlı rəsmi məlumatları MSK-nın internet səhifələrindən əldə edə biliblər.

Hesabatda 1000 seçki məntəqəsində veb-kameraların quraşdırıldığı, hər bir seçicinin gizli səsvermə üçün xüsusi texniki vasitələrlə təchiz edilmiş kabinədə şəxsən səs verdiyi bildirilir. Vurğulanır ki, məntəqə seçki komissiyalarının üzvləri və müşahidəçilər heç bir maneə və təzyiq olmadan fəaliyyət göstərirdilər. Məntəqələr seçicilərin rahat səs vermələri üçün bütün lazımi avadanlıq və materiallarla təchiz edilmişdi. Fərqli seçki məntəqələrində müşahidələr zamanı seçiciyə öz iradəsini ifadə etmək üçün təsir göstərmək cəhdləri və ya gizli səsvermənin pozulması kimi hallar müşahidə etmədik. Səsvermənin nəticələrini saxtalaşdırmaq və təhrif etməklə bağlı heç bir problem və ya cəhd qeydə almadıq. Seçki zamanı maraqlı bir yeniliyi də qeyd etmək olar ki, bu da seçicinin barmaqlarının ultrabənövşəyi lampalarla yoxlanılması, xüsusi mürəkkəblə işarələnməsi idi. Səhhəti ilə bağlı məntəqəyə gələ bilməyənlər üçün də lazımi imkanlar yaradılmışdı. Bu məqsədlə seçki məntəqələri səyyar qutularla təmin edilmişdi.

Hesabatda həmçinin müşahidə missiyasının bəzi çatışmazlıqlar da qeydə aldığı, lakin bu çatışmazlıqların səsvermə prosesinin normal şəraitdə keçməsinə və seçicilərin öz iradələrini sərbəst ifadə etmələrinə təsir göstərmədiyi bildirilir. Qeyd edilir ki, missiyanın üzvləri seçki məntəqələrinin bağlanması, səslərin sayılması və nəticələrlə bağlı protokolların doldurulması prosesini də izləyiblər və bu proses seçki qanunvericiliyinin tələblərinə uyğun aparılıb.

Beləliklə, avropalı deputatların və ekspertlərin fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı yekun rəyi odur ki, bütövlükdə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və dünyada qəbul edilmiş demokratik seçki normalarına uyğun keçirilib. Seçkilər şəffaf keçib və seçicilərin öz iradələrini ifadə etməsi təmin olunub.

Hesabatda müşahidə missiyasının üzvlərinin bir sıra tövsiyə xarakterli fikirləri də yer alıb.

## Rusiyanın “İzvestiya” qəzeti Azərbaycandakı parlament seçkilərindən bəhs edib

Rusiyanın “İzvestiya” qəzeti Azərbaycanda parlament seçkilərinin yekunlarını şərh edib.

AZƏRTAC xəbər verir ki, məqalədə seçkilərlə bağlı ümumi məlumatlar yer alıb. Parlament seçkilərini 58 ölkə və 59 təşkilatdan 800-dən çox müşahidəçinin izlədiyi qeyd edilir. Bildirilir ki, seçkilərin gedişi ilə bağlı ciddi problemlər qeydə alınmayıb.




Yazıda Azərbaycanda aparılan islahatlar, Prezident İlham Əliyevin daxili və xarici siyasəti barədə də söhbət açılır.

## *İran mətbuatı:* “Azərbaycanda seçkilər qanun pozuntusu olmadan həyata keçirilib”



İranın “Tabnak news” agentliyində Azərbaycanda fevralın 9-da keçirilən parlament seçkiləri haqqında xəbər dərc edilib.

AZƏRTAC xəbər verir ki, materialda parlament seçkilərinin beynəlxalq standartlara uyğun keçirildiyi bildirilib. Qeyd olunub ki, səsvermədə seçici fəallığı müşahidə edilib. Parlament seçkilərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası inamlı qələbə qazanıb.

Diqqətə çatdırılıb ki, səsvermə prosesini izləyən beynəlxalq müşahidəçilər seçkilərin qanun pozuntusu olmadan həyata keçirildiyini bildiriblər.

İranın İRNA, “Mehr news”, İSNA və digər saytlarında da Azərbaycanda keçirilən parlament seçkilərinə yer ayrılıb. Materiallarda qeyd olunur ki, Prezident İlham Əliyev ölkəsində geniş islahatlar həyata keçirir. İqtisadi islahatlarla yanaşı, siyasi islahatlar çərçivəsində ümumxalq səsverməsi ilə yeni parlament formalaşdırılır.

“İrib news” saytı və “Sədai səma” televiziya kanalı seçkilər haqqında videoxəbər yayımlayıblar.

## *Çin XİN rəsmisi:* “Çin parlament seçkilərinin uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edir”

Bir neçə gün əvvəl Azərbaycanda parlament seçkiləri uğurla keçirilib. Bu münasibətlə Çin tərəfi Azərbaycanı təbrik edir və Azərbaycan xalqına ölkənin inkişafı yolunda daha da böyük uğurlar əldə etməyi səmimi-qəlbdən arzulayır.

AZƏRTAC xəbər verir ki, bu fikri Çinin Xarici İşlər Nazirliyinin rəsmisi Qen Şuan mətbuat konfransında fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı Çin tərəfinin mövqeyinə dair sualı cavablandırarkən deyib.

“Çin tərəfi yaxın dost və tərəfdaş olaraq Azərbaycanla ikitərəfli münasibətlərini yüksək qiymətləndirir. Çin Azərbaycan ilə qarşılıqlı dəstəyi artırmaqla və “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində yüksəksəviyyəli əməkdaşlıq qurmaqla iki ölkə arasında münasibətlərin yeni mərhələyə yüksəlməsini arzu edir”, - deyə XİN rəsmisi bildirib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Vergi islahatları: Birlikdə kölgədən işıqlığa doğru” mövzusunda konfrans keçirilib

Fevralın 11-də vergi xidməti işçilərinin peşə bayramı münasibətilə “Vergi islahatları: Birlikdə kölgədən işıqlığa doğru” mövzusunda konfrans keçirilib.





Tədbirdə vergi orqanları əməkdaşları, dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin nümayəndələri, iqtisadçı ekspertlər və iş adamları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov 2019-cu ildə ölkəmizin iqtisadi inkişafı, vergi siyasətinin əsas istiqamətləri və aparılan islahatlar, vergi qanunvericiliyində və inzibatçılığında dəyişikliklər, onların iqtisadiyyata təsiri, şəffaflıq istiqamətində yeni çağırışlar, vergi orqanlarının sahibkarlarla yeni iş prinsipləri barədə danışıb. Nazir bildirib ki, ötən il iqtisadiyyatda şəffaflaşma prosesləri genişləndirilib, kölgə iqtisadiyyatının miqyasının azaldılması ilə bağlı ciddi addımlar atılıb. Son dövrlərdə şəffaf münasibətlərin qurulması kontekstində atılan addımlar dövlət-biznes münasibətlərində yeni bir transformasiyanın əsasını qoyub. Yumşaq vergi nəzarəti, yeni vergi güzəştləri mexanizminin tətbiqi biznesin “kölgə”dən çıxmasına zəmin yaradıb. Bütövlükdə, işgüzar dairələrin yeni münasibətlər kontekstinə müsbət yanaşması aparılan siyasətin düzgünlüyünü, şəffaflığın isə alternativsizliyini bir daha sübut edir.

İqtisadiyyat naziri vergi sisteminin iqtisadi tənzimlənmədə və sahibkarlığın inkişafında mühüm rol oynadığını qeyd edib, iqtisadi inkişafın işgüzar fəallığa və biznesin çevikliyinə bağlı olduğunu, kiçik və orta biznesin məşğulluqda, davamlı və dayanıqlı iqtisadiyyatda rolunun artırılmasının önəmini vurğulayıb, fəaliyyətində şəffaflığı təmin edən sahibkarlara təşəkkür edib.

M.Cabbarov Prezident İlham Əliyevin imzaladığı sərəncamla bir qrup vergi xidməti əməkdaşının təltif edildiyini diqqətə çatdırıb, vergi orqanları əməkdaşlarının əməyinə verilən yüksək qiymətə görə dövlət başçısına xidmətin kollektivi adından minnətdarlığını bildirib.

Konfransda Vergilər nazirinin müavini İlkin Vəliyev “Vergi inzibatçılığında şəffaflığa aparan yol” mövzusunda təqdimatla çıxış edib və vergi sistemində reallaşdırılan islahatlar, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, həyata keçirilən və nəzərdə tutulan işlər barədə danışıb.

Tədbirdə Azərbaycanda Amerika Ticarət Palatasının (“AmCham”) rəhbəri Nuran Kərimov “Kölgə iqtisadiyyatı ilə mübarizə və şəffaflıq”, “Millennium” turizm şirkətinin direktoru Ruslan Quliyev “Vergi sahəsində sahibkarlar üçün yaradılmış münbit şərait”, Bakı Hesabat Mərkəzinin direktoru Mehdi Babayev “Şəffaf uçot, asan hesablama, dürüst hesabatlılıq vergi inzibatçılığının əsas istiqaməti kimi”, “Unimetal” MMC-nin direktoru Rüfət Əzizov “Vergi siyasətinin investisiya mühitinə təsiri”, AMEA-nın müxbir üzvü, professor Akif Musayev “Vergi orqanı: dünən, bu gün” mövzusunda çıxış ediblər.

Natiqlər ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin daha da yaxşılaşdırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri müsbət qiymətləndirib, iqtisadiyyatın şəffaflaşdırılması məqsədilə aparılan islahatlara dair təkliflər səsləndiriblər.

Konfrans öz işini panel iclasında davam etdirib. İclasda iştirakçıların sualları cavablandırılıb, aktual məsələlər ətrafında müzakirələr aparılıb.

## *BMT-nin Dünya Turizm Təşkilatı:* “Azərbaycan dünyada turizmin ən sürətlə inkişaf etdiyi 20 ölkədən biridir”

BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) “Dünya Turizm Barometrinin” (World Tourism Barometer (WTB) Annex 18) yanvar hesabatına əsasən, Azərbaycan dünyada turizmi ən sürətlə inkişaf edən 20 ölkədən biri kimi qiymətləndirilib. Qeyd edək ki, hesabat ildə dörd dəfə nəşr olunur və turizm istiqamətləri üzrə ən son məlumatların təhlilini özündə cəmləşdirir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təhlilçisi Nərmin Kazımlı bildirir ki, bir qədər əvvəl açıqlanan “İnternational Tourism Highlights 2019” məlumatında da Azərbaycana gələn turistlərin ümumi sayında 2017-ci illə müqayisədə 2018-ci ildə 6,2 faiz artım olduğu qeyd edilib. Müqayisə etdikdə müşahidə olunur ki, Azərbaycan Latviya, Estoniya, Rusiya, Türkmənistan, Qırğızıstan, Ukrayna kimi region, inkişaf etmiş Avropa dövlətlərindən isə İspaniya, Fransa, Avstriya, Almaniya kimi ölkələri geridə qoyub. Həmçinin 2019-cu ildə 11,4 faiz artımla Azərbaycan 18-ci yerdə qərarlaşmaqla ən sürətlə inkişaf edən ölkələrdən biri olaraq dəyərləndirilib. Hesabatda qeyd olunub ki, vacib idman tədbirlərinə evsahibliyi, viza prosesinin sadələşdirilməsi və beynəlxalq mətbuatda aparılan reklam kampaniyaları ölkədə turizmin inkişafını təşviq edib. Turizm sektorunda xidmət paketlərinin yenilənməsi, müxtəlif turizm fəaliyyət növlərinin səmərəli təbliği, fiziki və sosial regional turizm infrastrukturunun məqsədyönlü inkişafı istiqamətində əsaslı tədbirlər icra edilib. Həmçinin ənənəvi və müasir müalicə imkanlarından istifadə edilməklə sağlamlıq, perspektivli qış turizmi və ekoturizmin inkişafına investisiya qoyuluşları və bu kimi digər tədbirlər turizmin ÜDM-də payının artımına, yeni iş yerlərinin yaradılmasına öz töhfəsini verir.

Təhlilçi əlavə edir ki, turizm qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələrdən biridir. Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edilməsi, hava əlaqəsinin və ölkəyə əlçatanlığın artırılması, qədim tarixə, ənənəvi dəyərlərə, cəlbedici təbiətə malik olması və yerli dəyərlərin beynəlxalq aləmdə uğurla təbliği bu sahənin əsas potensial imkanlarından hesab olunur. Ölkədə turizm sektorunun inkişafının dəstəklənməsi nəticəsində mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2015-ci illə müqayisədə 2018-ci ildə 60 ədəd, müvafiq xidmətlərdən istifadə edən yerli və əcnəbi turistlərin sayı isə 991,330 min nəfər artmışdır.

BMT-nin Dünya Turizm Təşkilatı təqdim etdiyi hesabatda dünyadakı beynəlxalq turist axınının 2020-ci ildə müsbət tempi qoruyaraq 3 faizdən 4 faizə artacağını proqnozlaşdırır. İİTKM-in şərhçisi qeyd edir ki, Azərbaycanda Prezidentin rəhbərliyi ilə iqtisadiyyatın sürətlə inkişaf edən sahəsi olaraq turizm bazarının təkmilləşdirilməsi, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində əsaslı islahat tədbirləri həyata keçirilir, bu istiqamətdə mühüm işlər görülür. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumunun 2019-cu ildə açıqladığı “Turizm və səyahətin rəqabət qabiliyyəti” adlı hesabatına əsasən, Azərbaycan turizmdə biznes mühiti üzrə ötən hesabatla müqayisədə 57-ci mövqedən 28-ci pilləyə yüksəlmişdir.



## “Şahdəniz”in sayəsində Azərbaycan Avrasiyada qaz ixrac edən ölkəyə çevrildi

### Yataqda yeni quyuların qazılması sabit hasilat səviyyəsinədək davam edəcək

*Əvvəli 1-ci səh.*

Mövcud “Şahdəniz” qurğularının hasilat gücü hazırda gündə 56 milyon (ildə 20 milyarddan artıq) standart kubmetrdir. Ümumilikdə isə “Şahdəniz” 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan çox kondensat ehtiyatları olan zəngin yataqdır. Məhz bu yatağın sayəsində Azərbaycan dünyada həm də qaz ixrac edən ölkə kimi tanınıb. Prezident İlham Əliyev “Şahdəniz”ə böyük dəyər verərək demişdir: “Əgər “Şahdəniz” kontraktı 1996-cı ildə imzalanmasaydı, nə Bakı-Tbilisi-Ərzurum, nə TANAP, nə də “Cənub qaz dəhlizi” olacaqdı. Beləliklə, Azərbaycanın qaz təminatı nə vəziyyətdə olacaqdı? Əgər “Şahdəniz” qazı olmasaydı, biz öz tələbatımızı ödəyə bilməyəcəkdik. Ona nə qədər investisiyalar qoyuldu və bu gün Azərbaycan dünya miqyasında, Avrasiyada qaz ixrac edən ölkəyə çevrilibdir”.

Yataqdan çıxarılan qaz Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə çatdırılır. “Şahdəniz”in kondensatı isə BTC-yə vurulur.

Xatırladaq ki, “Şahdəniz”də iştirak payları belədir: BP (operator - 28,8 faiz, TPAO (19 faiz), AzŞD (10 faiz), “Cənub qaz dəhlizi” Apstrim (6.7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz).

Keçən il “Şahdəniz” üzrə əməliyyat xərcləri 544 milyon dollara yaxın və əsaslı xərclər 1,1 milyard dollar təşkil edib. Əsaslı xərclərin böyük əksəriyyəti “Şahdəniz-2” layihəsinə sərf olunub. Belə ki, layihənin dənizdəki və qurudakı obyektlərinin əməliyyatların aparılması üçün təhvili tam başa çatıb. Layihə komandası ilk hasilat ilində “Şahdəniz-2” qurğularının yüksək səmərəliliyini təmin etmək məqsədilə əməliyyatlara davamlı dəstək veriblər.

2019-cu il ərzində layihə çərçivəsində sualtı quraşdırma, o cümlədən 2021-ci ildə yatağın şərq-cənub cinahından hasilatın başlanması üçün dərin sularda avadanlıqların quraşdırılması işləri aparılıb. Qaz hasilatını nəzərdə tutulan sabit səviyyəyə çatdırmaq üçün qarşıdakı illərdə “Xankəndi” sualtı tikinti gəmisi və “İsrafil Hüseynov” borudüzmə barjı sualtı qurğuların daşınması və quraşdırılması işlərini davam etdirəcəklər.

“Şahdəniz”də qazma işlərinə gəldikdə isə, keçən il “Şahdəniz Alfa”dan quyu qazılmayıb, çünki bu müddət ərzində platformanın qazma qurğusunda profilaktik işlər aparılıb. Bir sıra quyularda əvvəlcədən başlanmış qazma işləri davam etdirilib və tamamlanıb.

“İstiqlal” və “Maersk Explorer” qurğuları “Şahdəniz-2”nin hasilatı və onun sonrakı tədrici artımı üçün indiyədək ümumilikdə 17 quyu qazıb. Bunlardan 16-sı tamamlanıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinədək tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.

Hazırda “Şahdəniz” qazı Cənubi Qafqaz Boru Kəməri (CQBK) və genişləndirilmiş CQBK ilə nəql olunur. Xatırladaq ki, CQBK 2006-cı ilin sonlarında istismara verilib və qazı Azərbaycan, Gürcüstan və Türkiyəyə çatdırır. Genişləndirilmiş CQBK isə kommersiya qaz həcmlərinin Türkiyəyə təhvil verilməsinə 2018-ci ilin iyun ayında başlayıb.

2019-cu il ərzində CQBK-nin gündəlik orta ötürücülük gücü 29 milyon kubmetr olub.

CQBK-nin fəaliyyətində ikili operatorluq həyata keçirilir. BP şirkəti kəmərin obyektlərinin tikintisi və istismarı üzrə məsul texniki operator, SOCAR Midstream Operations isə kommersiya əməliyyatları üzrə məsul kommersiya əməliyyatçısıdır.

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Türkiyəyə daşıdığı qazı məhz genişləndirilmiş CQBK-dən qəbul edir. Bu il TANAP “Şahdəniz” qazını hazırda çəkilişi başa çatmaqda olan Trans-Anadolu Qaz Boru Kəmərinə (TAP) də ötürəcək. Beləliklə, Avropadakı istehlakçılar da çoxdandır gözlədikləri Azərbaycan qazını alacaqlar.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Artıq “Mingəçevir Tekstil” brenddir

**Prezident İlham Əliyevin təşəbbüsü ilə fəaliyyətə başlayan “Mingəçevir Tekstil” artıq bir brendə çevrilib. Fabrikdə istehsal olunan ipliklərin Open End və Ring növlərinə bu gün dünyanın bir çox ölkələrində böyük tələbat var.**



Mingəçevir Sənaye Parkındakı bu MMC qısa bir zamanda istehsal etdiyi yüksək keyfiyyətli pambıq ipləri xarici bazarlara çıxarmağa başlayıb. MMC-nin direktoru Mehman Hüseynovun sözlərinə görə, 2018-ci ildə istehsala başlayan müəssisə elə həmin il 4 min tona yaxın - təqribən 16 milyon manatlıq keyfiyyətli məhsul istehsal etmişdir ki, bunun da 13 milyon manat dəyərində olan 3 min tonu, yəni təqribən 80 faizdən çoxu ixrac edilmişdir. Keçən il müəssisənin satdığı 12 min ton məhsulun 6 min tonunun Open End və bir o qədərinin Ring növündə olduğunu deyən direktor ümumilikdə həmin məhsulların 83 faizinin (10 min tonunun) ixrac edildiyini bildirmişdir. “Beləliklə, daxili bazara satışımızın dəyəri 7 milyon, ixrac isə 39 milyon manat olmaqla ümumilikdə 2019-cu ildə 46 milyon manat təşkil edib” - deyən M.Hüseynov məhsullarının Rusiya, Türkiyə, Portuqaliya, Belçika, Ukrayna, Polşa və Pakistan kimi ölkələrə ixrac olunduğunu diqqətə çatdırmışdır.

Onu da qeyd edək ki, Mingəçevir Sənaye Parkındakı fabriklərin istifadəyə verilməsi Azərbaycanda yüngül sənayenin, xüsusilə də tekstil sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsula çevrilərək ixracına şərait yaradılıb. Bu isə həm də ölkəmizə əlavə xarici valyutanın daxil olması deməkdir. Mingəçevirdəki fabriklər sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərinin yaradılması və yeni iş yerlərinin açılması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Məlumat üçün bildirək ki, hazırda Mingəçevir Sənaye Parkının fabriklərində 700 nəfərdən çox işçi çalışır.

MMC-nin direktoru onu da bildirmişdir ki, bu il onlar akril-viskon, akril-pambıq, viskoza və tensel ipliklərinin istehsalına başlamağı planlaşdırırlar: “Əsas hədəfimiz məhsulları şaxələndirərək xarici satış bazarlarımızı genişləndirmək və qeyri-neft sektorunun inkişafına öz töhfəmizi verməkdir”.

## Qayalar yarılır, yollar genişləndirilir



**Dövlət başçısının sərəncamlarına əsasən, vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, yük və sərnişindaşımanın asanlaşması ilə bərabər, bölgələrdə kənd təsərrüfatı, turizm və sənayenin birbaşa inkişafına səbəb olacaq irimiqyaslı yol infrastrukturu layihələrinin icrası davam edir.**

Bu cür layihələrdən biri 68 min əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən və 46 km uzunluğa malik Quba-Qonaqkənd avtomobil yolunun yenidən qurulmasıdır. Sözügedən avtomobil yolu keçdiyi ərazinin relyefinə görə III və IV texniki dərəcəyə uyğun salınır. Müvafiq olaraq yolun torpaq yatağı 12 və 10, hərəkət hissəsi isə 7 və 6 metrdir.

Yol uzun müddət istismar olunduğu üçün sıradan çıxdığından layihə çərçivəsində mövcud örtük sökülərək kənara daşınıb, yararsız qruntun qazılaraq çıxarılması, əvəzinə yararlı material tökülərək kipləşdirilməsi işləri görülüb, bəzi yerlərdə yolun normativ eninin alınması üçün dağ yamaclarının qaya tipli süxurları kəsilərək çıxarılıb və torpaq yatağı genişləndirilərək tələb olunan hündürlüyə qaldırılıb, yatağın yamacları mexaniki üsulla hamarlanıb.

Yolboyu tələb olunan yerlərə suötürücü boruların quraşdırılması tələb edildiyi üçün müxtəlif diametrli 46 metal, azbest və dəmir-beton suötürücü borular quraşdırılaraq izolyasiya olunub. Mövcud küvetlər tam dolduğundan yolun yuxarı maillik olan hissələrində atmosfer sularının istiqamətləndirilməsi üçün 5 min paqonmetr yeni dəmir-beton küvetlər inşa olunub, istinad divarları tikilib.

Bundan başqa, yol boyunca asfalt-beton örtüyün salınması işləri aparılıb. Bunun üçün əsasən qum qırmadaş və optimal qum-çınqıl qarışığından istifadə edilib. Ardınca isə əlaqələndirici bitum səpilməklə yola iri və xırda dənəli asfalt-beton qarışığından örtük salınıb.

Layihə çərçivəsində habelə yolun dağ çayları üzərində 5 körpü inşa edilib. Təkcə Babaçay üzərindən salınan körpünün uzunluğu 126, Cimiçay üzərindəki körpünün uzunluğu 80 metrdir. Hər iki körpünün ətrafında sunizamlayıcı və sahilbərkidici dəmir-beton istinad divarları tikilib.

Hazırda avtomobil yolunun Təngəaltı kəndi ərazisində, sıldırım qayalıqlar arasından keçən hissəsinin genişləndirilməsi işləri aparılır, 150 metrlik dəmir-beton konstruksiyalı bənd qurulur. “Təngə dərəsi” kimi tanınan ərazidə - Vəlvələçayın kənarında qurulan bəndin hündürlüyü 12 metr olacaq. Yolun genişləndirilməsi işləri Quba-Qonaqkənd yolunun 29-30-cu kilometrlik hissəsini əhatə edir. Çayda bənd vurulması və qayaların çapılması hesabına yolun hərəkət hissəsinin 4-5 metrdən 7-12 metrə kimi genişləndirilməsi nəzərdə tutulub.

Rayonun Amsar, Nügədi, Püstəqasım, Qam-qam, Təngəaltı və başqa yaşayış məntəqələrindən keçən yolun yenidən qurulması əhaliyə məhsullarını qısa vaxtda istədikləri ünvanlara çatdırmağa imkan yaradacaq, bölgənin turizm imkanlarını genişləndirəcək.

***“AZƏRBAYCAN”***

## Açılacaq yeni mərkəzlər ildə əlavə 12,8 min şəxsə reabilitasiya xidməti göstərməyə imkan verəcək

Bu il Xaçmaz, Şəki, Lənkəran, Şirvan şəhərlərində hər biri ildə 700 şəxsə xidmət göstərəcək bərpa mərkəzləri və ildə əlilliyi olan 6500 şəxsə xidmət göstərmək üçün müalicə pansionatı əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə veriləcək.

Hazırda Sumqayıt Bərpa Mərkəzində müasir reabilitasiya şəraiti yaradılır və həmin mərkəzin də cari ildə açılışı nəzərdə tutulur. Mərkəz ildə 1500 şəxsə xidmət edəcək. Eyni zamanda bu il Şəmkir və Qəbələ rayonlarında hər biri ildə 1000-dək şəxsə bərpa xidmətləri göstərəcək yeni müəssisələrin tikintisi planlaşdırılır. Beləliklə, 2020-ci ildə açılacaq və inşasına başlanacaq bərpa mərkəzləri ildə əlavə 12,8 min şəxsə reabilitasiya xidməti göstərməyə, bu xidmətlərlə təmin edilənlərin illik sayının iki dəfə artaraq 26,1 minə çatmasına imkan verəcək.

## 14 min hektarda meşəbərpa işləri görülmüşdür

Ötən il Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamenti tərəfindən meşələrin bərpa olunması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.



Nazirliyin yaydığı məlumatda bildirilir ki, tarlaqoruyucu meşə zolaqlarının, yaşıllıqların salınmasında iqtisadi səmərə verən bitki növlərindən istifadə səviyyəsinin artırılması, meşə sahələrinin seyrəkləşməsinin və azalmasının, torpaqların eroziyası təhlükəsinin qarşısının alınması, bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə 60,4 min hektar meşə fondu torpaqlarına xidmət göstərilmiş, o cümlədən 14 min hektarda meşəbərpa tədbirləri görülmüşdür. Bu tədbirlər çərçivəsində 1,5 min hektar sahədə yeni meşə ağacları əkilmiş, o cümlədən 12 hektarda meyvə, ağac və kol cinslərinin toxumları səpilmiş və 12,5 min hektarda meşələrin təbii bərpasına kömək tədbirləri həyata keçirilmişdir. Bundan başqa, 61,7 min hektar meşə fondu torpaqlarında birdəfəlik suvarma işləri aparılmışdır.

Ümumilikdə 2019-cu ildə meşə ilə örtülü sahələrdən 38,1 ton meyvə, ağac və kol cinsləri toxumları tədarük edilmişdir ki, onların da 7,1 tonu qoz, 0,4 tonu ərik, 0,4 tonu şaftalı, 26,6 tonu palıd, 2,8 tonu digər ağac və kol cinslərinin toxumlarının payına düşmüşdür.





# Mədəniyyət





● Sazın, sözün sehrində

**Tarixin müxtəlif mərhələlərində aşıq sənətini təmsil edən saz-söz ustadları yazılı ədəbiyyatın klassikləri ilə eyni səviyyədə dayanan sənətkarlar olmuşlar.**

**Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomima və teatrın elementləri üzvi şəkildə birləşmişdir. Yəni aşıq yaradıcı, ifaçı, pedaqoji əsasları özündə cəmləyir. Bu cəhətləri özündə qovuşduran və şagirdlər tərbiyə edən sənətkarlara “ustad aşıqlar”, onlardan öyrənənlərə isə “şəyirdlər” deyiblər.**

# Uşaqlıqdan başlayan sənət yolu

## Aşıq Şəmşir adına Kəlbəcər Rayon Mədəniyyət Evinin 50 yaşlı Uşaq aşıqlar ansamblının uğurları bu gün də davam edir





Təbii ki, hər sənətin yaşadılması və gələcək nəsillərə ötürülməsi üçün müxtəlif vasitələr olub. Ozan-aşıq sənətinin də yeni nəsillər tərəfindən yaşadılmasında uşaq aşıqlar ansambları mühüm vasitələrdən biri olub. Uşaq aşıqlar ansambları uzun tarixi yol keçməyib. Respublikada bu istiqamətdə ilk addımlar ötən əsrin ortalarında, daha doğrusu, səksəninci illərində atılıb. Bu məsələyə xüsusi diqqət əsasən respublikamızın qərb regionunda fəaliyyət göstərən mədəniyyət evləri və klublardan başlayıb. O yerdə ki, aşıq sənətinin heyranları və biliciləri vardı, orada belə ansamblların yaradılmasına ciddi ehtiyac duyulurdu.

Zaman keçdikcə bu sənətə maraq daha da çoxaldı. Bunu nəzərə alan respublika Mədəniyyət Nazirliyi ötən əsrin ortalarında klub və mədəniyyət evlərində həvəskarlardan ibarət uşaq aşıqlar ansambllarının yaradılmasını zəruri hesab etdi. Respublikamızın qərb bölgəsində aşıq sənətinə olan maraq xüsusilə özünü göstərməyə başladı.

Kəlbəcəri yalnız təbiətən cənnət-məkan sayanlar eyni zamanda bu ulu türk yurdunun istedadlılar məskəni olduğunu da unutmadılar. Burada dünyaya göz açanların saza-sözə vurğun olmaları da bir möcüzə sayıldı. Son illərin tədqiqatları göstərir ki, ozan-aşıq sənətinin kökləri tarixin daha dərin qatlarına gedib çıxır. Yəni o, incəsənətin digər növlərinin ən qədimi sayılır.

Belə ansambllardan biri də Aşıq Şəmşir adına Kəlbəcər Rayon Mədəniyyət Evinin nəzdində 50 il bundan öncə yaradıldı. Əsasən sazbəndliklə məşğul və məşhur olan aşıq Əliş Quliyevin yaratdığı və bədii rəhbərlik etdiyi uşaq aşıqlar və “Sazçı qızlar” ansambllarının tərkibi yalnız məktəbyaşlılardan ibarət deyildi. Hətta bu ansambllarda hələ sazı sinəsində saxlaya bilməyən, dinləyənlərini isə heyran qoyan, “Aşıq Pəri” məclisinin üzvlərindən biri - Gözəl Zalova, Qəsibə Əlbəndova, Xanım Xanlarova, Südabə Allahverdiyeva, Südabə Həsənova... kimi qızların ifaları o zaman bütün mədəni-kütləvi tədbirlərdə gurultulu alqışlarla qarşılanırdı.

Atasından sonra ansamblın dağılıb məhv olmasının qarşısını alan, yeni nəfəslərlə, incə barmaqlı uşaqlarla qoruyub saxlayan onun bədii rəhbəri Yusif Quliyevdir. Ata-babadan yadigar qalan ozan-aşıq sənətinin yenicə saz tutan və buna marağı olan uşaqlara öyrədir ki, orta əsrlərin ilkin çağlarından təşəkkül tapan aşıqlıq, əslində, qədim ozan sənətinin davamı və varisidir: “Azərbaycan xalqının soykökündə və təşəkkülündə başlıca rol oynamış oğuz qəbilə birləşmələrinin geniş yayılmış incəsənətinin bir qolu olan ozan sənəti zaman keçdikcə özünün yeni forma və məzmununu qazanıb. Rişələri ilə çox qədim köklərə, zəngin mifik və əsatiri təsəvvürlərə malik olan ozanlar orta əsrlərin mühafizəkar dini ideologiyası qarşısında uzun müddət müqavimət göstərsələr də, Dədə Qorqud ənənələrini qoruya bilmədilər və tədricən öz meydanlarını aşığa verdilər”.

Aşıq Şəmşir adına Kəlbəcər Rayon Mədəniyyət Evinin direktoru Akif Bayramov deyir ki, həm sazbənd, həm də Uşaq aşıqlar ansamblının yaradıcısı və bədii rəhbəri kimi tanınmış aşıq Əliş Quliyevin ailəsində dünyaya göz açan Yusif və Asif qardaşları ata yolunu bu gün də layiqincə davam etdirirlər: “Yusif müəllim ansamblın bədii rəhbəri, Asif isə atasının sazbəndlik peşəsi ilə məşğuldur, həm də Kəlbəcər Uşaq İncəsənət Məktəbinin müəllimidir. Kəlbəcər yeddillik uşaq musiqi məktəbinin tar sinfini bitirdikdən sonra ixtisası üzrə dərs deyən Asif müəllim sonralar müxtəlif simli musiqi alətlərinin kamil bilicisi, ustadı, yaşadanı və onlarda kamil ifa edən kimi tanınır və sevilir”.

Yeri gəlmişkən, onu da xatırladaq ki, bu ansamblın tərkibinə yeni həvəskarların cəlb olunmasında “Aşıq Şəmşir Mədəniyyət Ocağı” İctimai Birliyinin sədri, Respublika Ağsaqqallar Şurasının üzvü, yazıçı-publisist Qənbər Şəmşiroğlunun təşəbbüsü ilə reallaşan xüsusi layihələr də az olmayıb. Birlik onların müxtəlif müsabiqə və festivallarda iştirakını təmin, yüksək yerləri tutan uşaq aşıqlarının həvəsləndirilməsi üçün isə xüsusi mükafatlar təsis edib.

Ansamblın bədii rəhbəri Yusif Quliyev əlavə edir ki, Uşaq aşıqlar ansamblı yaradılarkən ustad aşıq Əliş Quliyevdən dərs alan həvəskarlardan bu gün respublikada çox məşhur olanları var. Solo saz ifaçısı kimi tanınmış, vaxtilə Ümumittifaq Folklor Ansambllarına Baxış Müsabiqəsinin laureatı olmuş, Əməkdar mədəniyyət işçisi aşıq Ədalət Dəlidağlı, Asif və Yusif Quliyev qardaşları, Rasim Əhmədov, Habil Sadıqov, Kərəm Abbasquliyev, Tahir Mirzəyev, Ədalət Əliyev, Ramiz Həsənov, Sevil Xıdırovanın və digərlərinin sənət yolu məhz bu ansambldan başlayıb: “Dünənki uşaqlar bu gün artıq kamil saz ifaçısı kimi özlərini təsdiqləyiblər. Ansamblın tərkibi Şəmistan Nəcəfzadə, Atakişi Sadıqzadə, Samirə Əliyeva, Birgül Həsənova, Saqi Əhmədov, Murad Əliyev, Rəşad Mirzəzadə, Əli Hüseynzadə, Ruslan Əliyev kimi sazla ülfət bağlayan, onu mehr-məhəbbətlə öyrənən uşaq-gənclərimizlə bir az da zənginləşib”.

*Məhəmməd NƏRİMANOĞLU,*
*“Azərbaycan”*

● Çillələr



# Qışın dəlisov oğlu - KİÇİK ÇİLLƏ

**Ulularımız vaxtın, zamanın düzümünü yalnız ilin fəsillərinə görə deyil, həm də təbiətin dəyişmələri ilə hesablayıblar. Qış fəslini üç yerə bölüb, ilkini Böyük çillə adlandırıblar. Çillələrin böyüyü dekabrın 21-dən 22-nə keçən gecə qışla birlikdə gəlir. Ömrü qırx gün çəkir. Yanvarın 31-dən fevralın 1-nə keçən gecə isə Kiçik çillənin dövranı başlayır. İyirmi gün sonra növbə ala çillə, ala çolpav da deyilən Boz ayındır. Martın 20-də baharın gəlişi ilə Boz ayın da bir aylıq ömrü başa çatır.**

İndi qışın Kiçik çillə dövrüdür. Folklorumuzda da çox zaman Böyük çillənin dəlisov qardaşı kimi bəhs olunub rəvayətlər, bayatılar söylənən bu çillə “qışın oğlan çağı” hesab edilir.

Folklorşünaslar çillə sözünün əzab, əziyyət, çətin, çıxılmaz vəziyyət mənasını verdiyini qeyd edirlər. Ancaq Qışın bu iki oğlundan birinin - Böyük çillənin daha rəhmli olduğu qənaətinə gələn insanlar qədim zamanlardan ondan Kiçik çillə qədər ehtiyat etməyiblər. Bu münasibət folklor nümunələrimizdə də əksini tapıb. Böyük çillənin Kiçik çilləyə nisbətən mərhəmətli olması mərasim nəğmələrindən birində belə ifadə olunub:

Böyük çillə, nar çillə,
Ağ gül üstə qar çilə.
Buğdalara yorğan ol,
Bağçalara bar çilə.

Daha rəhimsiz, sərt hesab etdikləri Kiçik çillədən isə belə bəhs ediblər:

Kiçik çillə, vay çillə
Qarlı, dumanlı çillə.
Gəbə, kilim toxuduq,
Cəhrəmizdə var çillə.

Ömrü daha uzun - qırx gün çəkən Böyük çilləyə məhəbbət başqa bir folklor nümunəsində belə əks edilib:

Böyük çillə
Boyu bir belə,
Gəldi elə
Gülə-gülə,
Getdi gülə-gülə.

İyirmi gün ömrü olan çovğunlu, qarlı, şaxtalı Kiçik çilləni isə belə təsvir ediblər:

Kiçik çillə
Boyu bir belə,
Hikkəsi bir belə.
Gəlişi oldu
Hayınan,
Gedişi oldu
Vayınan.

Çillələr haqqında xalq arasında müxtəlif rəvayətlər yaranıb. Onlardan biri belədir: “Qırx günlük ömrünü başa vurub geri qayıdan Böyük çillə yolda Kiçik çillə ilə qarşılaşır. Kiçik çillə ondan xəbər alır: “Nə etdin?” Böyük çillə cavabında deyir: “Tayaları yarıladım, qovurma küpəsinin başını endirdim, qalaqları sökdürdüm”. Kiçik çillə Böyük çilləyə gülərək: “Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir teknəsində donduracağam”, - deyir.

Özündən əvvəlki Böyük çillədən və sonrakı Boz aydan soyuğu, şaxtası ilə fərqlənən Kiçik çillə ilk günlərində sərt üzünü göstərir. İlin barlı-bərəkətli aylarında toplanan azuqələr tükənməyə başlayır. Odur ki, Kiçik çillənin gəlişi insanları nə qədər qayğılandırırdısa, gedişi o qədər sevindirir, ümidləndirirdi.

Kiçik çillə gethagetdə yenə tufan qoparır. Və üzüntülü soyuğu, dondurucu şaxtası, dəlisov küləyi ilə birlikdə çəkilib gedir. Yerini Boz aya verir. Boz ayda qış yuxusuna getmiş təbiət hələ yuxuda olur. Amma daha qış qorxulu görünmür. Çünki yazın gəlişinə hazırlıqlara başlanılır.

*Zöhrə FƏRƏCOVA,*
*“Azərbaycan”*

● Yaddaş xəzinəmiz

# Milli-mənəvi dəyərlərimizlə qürur duymalıyıq

**Qədim tarixə və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı milli-mənəvi dəyərlər sistemi ilə də dünya sivilizasiyasına qiymətli bir xəzinə bəxş etmişdir. Tarixi, dili, mədəniyyəti, ədəbiyyatı, musiqisi, folkloru, ailə dəyərləri, adət-ənənələri ilə ölkəmiz daim seçilmişdir. Təbii ki, belə bir xalqın əsrlər boyu yaşadığı, həyatın sınaqlarından çıxan milli-mənəvi dəyərləri ilə fəxr etməyə, qürur duymağa haqqı var.**



Hər dövrdə olduğu kimi, müstəqillik dönəmində də bu zəngin sərvətin, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması önəmli əhəmiyyət kəsb edir. Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu istiqamətdə gördüyü işlər əvəzsizdir. Ulu Öndər milli-mənəvi dəyərlərimizi həm milli, həm də siyasi varlığımızın, dövlətçiliyimizin əsas atributu kimi qiymətləndirirdi. Heydər Əliyev Azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin dünya azərbaycanlılarının birləşdirilməsində, ümumbəşəri dəyərlərə inteqrasiyasında mühüm rol oynadığını qeyd edirdi. Ulu Öndər xarici ölkələrə səfərləri zamanı görüşlərdə soydaşlarımıza harada yaşamalarından asılı olmayaraq, Azərbaycançılıq ideologiyasına sadiq qalmağı, adətlərimizi yaşatmağı və təbliğ etməyi tövsiyə edirdi.

Gənclər tərəfindən milli-mənəvi dəyərlərimizin mənimsənilməsi onlarda azərbaycanlılara məxsus etnik-psixoloji keyfiyyətlərin və milli hisslərin formalaşmasına səbəb olur. Buna görə də həmin dəyərlər milli ideologiyanın, Azərbaycançılığın komponentləri kimi təkcə gənclərin deyil, bütöv xalqın mənəvi birliyini və həmrəyliyini təmin edir.

Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz, bayramlarımız özünəməxsusluğu ilə bizi başqa xalqlardan fərqləndirir, Azərbaycan ailəsində üstün keyfiyyətlər bu baxımdan xüsusilə diqqəti cəlb edir. Böyüyə hörmət, ata-anaya ehtiram, kiçiklərə qayğı ailəmizin əsas göstəricisi sayılır. Əsl Azərbaycan ailəsi gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonudur.

Mədəni irsimizin mənimsənilməsi, qorunması milli-mənəvi dəyərlərimizin ən vacib tərkib hissələrindəndir. Mədəni irsin rol və əhəmiyyəti onları təkcə olduqları formada mühafizə etmək deyil, eyni zamanda onlardan müasir dövrdə gənc nəslin tərbiyəsində istifadə etməyi bacarmaqdan ibarətdir. Bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu çoxsaylı uğurlara imza atıb.

Bu gün Azərbaycan cəmiyyəti dinamik inkişaf edir, gündən-günə müasirləşir. Etiraf edək ki, dünya ölkələrinə iqtisadi, mədəni, elmi inteqrasiya şəraitində müxtəlif təsirlər səbəbindən milli-mənəvi dəyərləri qorumaq getdikcə çətinləşir. Ona görə də gənclərin mənəviyyatına xarici təsirlərin qarşısının alınması bu gün həmişəkindən daha aktualdır. İndi əsas vəzifə gənc nəslin milli-mənəvi dəyərlərimizə sahib çıxmasına, onlarda vətənpərvərlik hisslərinin daha da gücləndirilməsinə nail olmaqdır. Bu gün zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə sübuta yetirən ölkə Prezidenti İlham Əliyevi milli-mənəvi dəyərlərimizin qüdrətli mühafizəçisi kimi görürük. Ölkə Prezidentinin konsepsiyasında göstərildiyi kimi, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırılmasının ən mühüm şərti milli dövlətçilikdən ibarətdir. Yalnız milli dövlət maddi sərvətləri ilə bərabər milli-mənəvi dəyərlərimizin qorunmasının qarantıdır.

Sözsüz ki, bütün dövrlərdə mütərəqqi adət-ənənələrin yaradıcısı, eyni zamanda onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqdır. Bayram adət-ənənələri, toy və yas mərasimləri, İslam dininin dünyəvi xarakteri mənəvi dəyərlər sistemimizdə özünəməxsus yer tutur.

Azərbaycanda qeyd olunan milli və dini bayramlarda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara, şəhid ailələrinə baş çəkmək, onlara bayram sovqatı vermək savab iş hesab edilir. Bizim adət-ənənələrimiz ilə milli dövlət quruculuğu arasında sıx bağlılıq var. Bu vəhdət barədə Ümummilli Lider Heydər Əliyev demişdir: “Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim “Qurani-Şərif”də öz əksini tapmışdır. Ancaq bunlarla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar”.

Azərbaycan xalqının qədimdən gələn qəhrəmanlıq ənənələri də var. Bu gün həmin ənənələrin gənc nəslə çatdırılmasında, ölkəmizdə fəaliyyət göstərən döyüş şöhrəti, tarix-diyarşünaslıq və bayraq muzeyləri xüsusi rol oynayır.

Əminliklə qeyd etmək olar ki, respublikamızda yaradılan şərait nəticəsində vətənpərvər gənclər nəsli formalaşmaqdadır. Məhz bu gənclər Ermənistanın silahlı təcavüzü nəticəsində işğal altında olan ərazilərimizin qaytarılmasında, şübhəsiz ki, həlledici rol oynayacaqlar.

*Əlizadə NƏCƏFOV,*
*tarix üzrə fəlsəfə doktoru*

● Xəbər

## “Paris Notr-Dama ithaf” tamaşası yenidən səhnədə

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrında böyük fransız yazıçısı, dramaturq Viktor Hüqonun “Paris Notr-Dam kilsəsi” romanının motivləri əsasında librettosu və quruluşu gənc rejissor Samir Qulamova məxsus olan eyniadlı tamaşa növbəti dəfə təqdim olunacaq.**

İdeya müəllifi və bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev olan bu tamaşa bəşəriyyətin nadir tarixi memarlıq incisi, Avropanın əzəmətli simvollarından biri Paris Notr-Dam kilsəsində 2019-cu ilin aprelin 15-də baş vermiş yanğın hadisəsinə ithaf olunub.

Fevralın 23-də göstəriləcək səhnə əsərinin süjet xəttinin mərkəzində fransız ədəbiyyatında tarixi roman janrının zirvəsi hesab olunan Viktor Hüqonun 1831-ci ildə qələmə aldığı “Paris Notr-Dam kilsəsi” romanının ölməz qəhrəmanları dayanır. Əsas qayəsində xeyirxahlıq, təmənnasız sevgi və mərhəmət hisslərinin təcəssümü əks olunan məşhur əsər indiyə qədər dünyanın bir çox adlı-sanlı teatr məkanlarında dəfələrlə səhnələşdirilib.

Qeyd edək ki, möhtəşəm əsərin quruluşçu dirijoru və orkestrləşdirmənin müəllifi Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri Əməkdar artistlər - Zakir və Yelena Ağayevlər, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu rəssamı Vüsal Rəhim, musiqi mətnlərinin müəllifi şair İlqar Fəhmi, dirijoru Səməd Süleymanlı, konsertmeysteri Kamil Həsənov, rejissor assistentləri Sevinc Məmmədova və Əmrah Dadaşovdur.

● İlk müjdəçi

# Xeyir-bərəkət bayramı

**Xalqımızın qədim bayramlarından biri də hər il qış yarı olanda keçirilən “Xıdır Nəbi” bayramıdır. Bu bayram keçmiş zamanlarda böyük təmtəraqla, xüsusi mərasimlərlə qeyd olunurdu. Xıdır Nəbi, adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi ilə müşayiət edilir. Folklor nümunələrində Xıdır Nəbi “suyun, külək və havanın himayəçisi” kimi təqdim olunur və Xızır peyğəmbərlə eyniləşdirilir.**



Tarixən fevralın birinci yarısı ərzində axşam şər qarışandan sonra uşaqlar, gənclər bir yerə toplaşır, Xıdır nəğməsi oxuya-oxuya qapıları döyür, Xıdır adına pay yığırdılar. Həmin gecənin Kiçik çillənin bitməsinə iki-beş gün qalmış keçirildiyi barədə də mənbələrdə məlumatlar var. Bu mərasim “Xıdır Nəbi” bayramı adlandırılır.

Tədqiqatçılar Kiçik çillənin çıxması münasibətilə keçirilən Xıdır Nəbi bayramının həm də qədim əkinçilik görüşlərini əks etdirdiyini qeyd ediblər. Bayram üç gün davam edir. Folklorşünasların yazdıqlarına görə, Xıdır Nəbi bayramının birinci günü torpaq təriflənirdi. Torpağın nəfəsi isinsin deyə, üstündə od qalanardı. Bağ-bağçalarda təmizlik işləri aparılır, qurumuş ot, xəzəl, çör-çöp yığılıb yandırılırdı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsuz kömbə bişirilir, öküzlərin qarnının altından diyirləyir, oxuyurdular:

Xıdır Nəbi, Xıdır İlyas
Bitdi çiçək, oldu yaz!

Bayramın üçüncü günü torpağı becərən, şum şumlayıb əkin əkən əməkçilər cütçü və əkinçinin şəxsində təriflənirdi. Güman edirdilər ki, boz atla gələcək Xıdır Nəbinin əlində od olacaq. O, torpağı isidən odla yanaşı, günəş və su, insanlara sağlamlıq gətirəcək. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunurdu, “Xıdır Nəbi”yə nəğmələr, şeirlər qoşulurdu. Bayram günlərində əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedən cavanları “Xıdırçı” adlandırırdılar. Onlar hava işıqlanmazdan qabaq əllərində şam Xızırın ardınca gedib nəğmələr oxuyurdular.

Xızır Nəbi bayramının nə vaxtdan keçirildiyi barədə dəqiq məlumat olmasa da, onun türk xalqları arasında geniş yayıldığı bəllidir.

Tədqiqaçılar bu qənaətdədirlər ki, əslində bütün Novruz bayramı ərəfəsi mərasimlər, çərşənbələrlə birlikdə Xızır peyğəmbərin adı ilə əlaqədardır. Xızırı xalq elə ilahiləşdirib ki, həyatın başlanğıcı kimi götürülən dörd ünsürü onun adı ilə bağlayıblar. Adının and yerinə çevrilməsi də bu etiqaddan irəli gəlib. “Xızır İlyas haqqı”, “Xızıra and olsun”, “Xıdır Zindi babaya and olsun” kimi andlar, “Xıdır Nəbi köməyin olsun”, “Xıdır Nəbi hayına yetsin”, “Xızır səni dardan qurtarsın”, “Xızır payını versin”, “Xıdırzində diləyini qəbul etsin” kimi alqışlar da xalqın inamı və məhəbbəti ilə yaranıb.

Xıdır İlyas, yaxud Xıdır Nəbi adlandırılan bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, Azərbaycanın bütün bölgələrində keçirilirdi. Folklorşünaslar bu mərasimin, demək olar ki, hər yerdə oxşar olduğunu qeyd ediblər. “Azərbaycan etnoqrafiyası” kitabındakı “Novruz bayramı” məqaləsində Kiçik çillənin birinci ongünlüyünün “Xıdır Nəbi” adlandırıldığı, bu dövrün qışın ən sərt, çovğunlu, boranlı günləri olduğu yazılıb: “Xıdır girdi, qış girdi, Xıdır çıxdı, qış çıxdı” atalar sözü də məhz buradan yaranıb”.

Xalqımızın inancına görə, Xıdır Nəbi bayramından sonra Yalançı çərşənbə, ardınca isə Xəbərçi çərşənbə və Boz ay gəlir. Beləcə, maraqlı Novruzqabağı mərasimlər bir-birini əvəz edir.

*Z.FƏRƏCOVA,*
*“Azərbaycan”*





# Bakı qara hazırdırmı?

## Yolların qardan və buzdan vaxtında təmizlənməsi üçün bütün zəruri texnika tam hazır vəziyyətə gətirilib

**Bu günlərdə Bakıda küləkli və qarlı hava müşahidə olunmaqdadır. Adətən, paytaxt sakinlərini daha çox narahat edən məsələ qarlı-şaxtalı günlərdə nəqliyyat sisteminin hərəkətində yaranan problemlər olur.**




Etiraf edək ki, bir neçə il bundan öncəyə qədər Bakıya yağan qar avtomobillərin hərəkətində ciddi məhdudiyyətlər yaradırdı. Qarın təmizlənmə prosesində yaşanan ləngimələr yolların buz bağlamasına səbəb olurdu. Hətta buzun tez əriməsi üçün istifadə edilən texniki duz və qum yollara fəhlələr tərəfindən bel vasitəsilə səpilirdi.

Son günlərdə apardığımız müşahidələr onu deməyə əsas verdi ki, yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunacaq texnika və mexanizmlər saz vəziyyətdədir. Buzun əriməsi üçün yollara səpilən texniki duz ehtiyatları kifayət qədərdir. Qarlı havada bu texnikalar vasitəsilə yollarda yaranan istənilən çətinliklərin aradan qaldırılması mümkündür.

Bu gün Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatı şəhər təsərrüfatının balansında müasir tipli qarkürüyücü, qartəmizləyici və duzsəpən avtomobillər mövcuddur. Bu günlərdə qışa hazırlıqla bağlı həmin texnikaların hansı vəziyyətdə olması ilə tanışlıq üçün Bakı Şəhər İcra Hakimiyyətinin bu prosesi həyata keçirən Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsinə yollandıq. İlk mənzərədən məlum oldu ki, idarə qış mövsümünə artıq tam hazırlıqlı vəziyyətə gətirilib.



Bizimlə söhbəti zamanı idarənin rəisi Mübariz Hüseynov qeyd etdi ki, sentyabr-oktyabr aylarından etibarən hazırlıq işlərinə başlanılıb. İdarənin balansında olan qış texnikası və nəqliyyat vasitələri bokslardan bayıra çıxarılaraq start vəziyyətinə gətirilib. İdarənin anbarında hazırda 4000 tona yaxın texniki duz var. Mövcud olan duz ehtiyatları yollarda yarana biləcək buz probleminin aradan qaldırılmasına imkan verəcək.

M.Hüseynov əlavə etdi ki, idarədə hazırda 50-yə yaxın qış texnikası mövcuddur. Bunların sırasında Almaniya və Rusiyadan alınan XCMG markalı kürüyücü avtoqreyder, "Hitachi" markalı yükləyici ekskavator, kürüyücü-yükləyici CAT 428F markalı avtotraktor, JAK markalı vakuum tipli avtomaşın var. Bundan başqa, MAN 18350 markalı qarkürüyücü avtomaşınlar, KamAZ 53229 markalı qum-duz səpən və kürüyücü avtomaşınlar, MAZ MDK 5337 markalı qum-duz səpən və kürüyücü avtomaşınlar tam hazır vəziyyətə gətirilib və sürücülərlə təmin edilib.

Onu da diqqətə çatdıraq ki, 100 nəfərə yaxın insanın çalışdığı idarə günün 24 saatı işlədiyi üçün burada çalışan əməkdaşların rahatlığı və istirahəti üçün lazımi şərait yaradılıb, otaqlar istiliklə təchiz olunub. İşlərin vaxtlı-vaxtında və keyfiyyətli aparılması məqsədilə növbətçilik tərtib edilib. Bütün işçilərə məsuliyyətləri ilə bağlı təlimlər keçirilib və Bakı şəhərinin rayonları üzrə təhkimçilər təyin edilib. Bu şəxslər mütəmadi olaraq yerlərdəki məlumatları idarəyə çatdırırlar. Burada gündəlik növbə ilə işləyən işçilərin hətta isti yeməklərlə təmin edilməsi də həyata keçirilir.

Yolların duzlama prosesinə gəlincə isə Mübariz Hüseynov bildirdi ki, işlər hər gün idarəyə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən daxil olan telefonoqrammalara əsasən qurulur. Əgər qarlı-şaxtalı hava gözlənilirsə, gecə saatlarında texniki duzla yüklənmiş avtomaşınlar, qarkürüyücü maşınlar şəhərin bütün istiqamətlərində hazırlıq vəziyyətinə gətirilirlər. Maşınlar əsasən mərkəzi küçələrdə, körpülər və tunellərin yaxınlığında dayanırlar. Körpülərin altı boş qaldığı üçün daha tez donma, buzlama ehtimalı olur. İnsanlar səhər saatlarında işə gedərkən yollar, körpülər buz örtüyündən təmizlənməlidir. Əks halda şəhərdə tıxaclar əmələ gələ bilər. Belə vəziyyətlərdə Bakı şəhəri Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları da idarə işçilərinə yardımçı olurlar.

Mübariz Hüseynov onu da əlavə etdi ki, şaxtalı havada yağan qarı və buz örtüyünü təmizləmək üçün əsasən texniki duzdan istifadə edilir: "Çünki texniki duz qar və buz əriyərkən suya qarışıb yox olur. Qum isə bir qədər problem yaradır. Ona görə də əsasən texniki duzdan istifadəyə üstünlük verilir: Bildilir ki, guya texniki duz asfalt örtüyü və avtomobillərə ziyan vurur. Bakı şəhərində hələ heç bir yola duzdan zərər dəyməyib. Avtomobillər də yuyularaq duzdan təmizlənir. Əgər duzun avtomobillərə ziyanı olsaydı, biz hər il yeni duz səpən avtomobil almaq məcburiyyətində qalardıq. Lakin texnikalarımız saz vəziyyətdə qalır".

Son günlərdə apardığımız müşahidələr onu deməyə əsas verir ki, bu qış paytaxtımızın yollarında ciddi problemlərlə qarşılaşmayacağıq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Tələbələrin "Qış məktəbi" başa çatdı



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Qəbələ rayonunun Nic qəsəbəsində təşkil etdiyi "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi" başa çatıb.

"Qış məktəbi" layihəsinin həyata keçirilməsində əsas məqsəd tələbələrdə vətənpərvərlik ruhunun gücləndirilməsi, onların intellektual səviyyəsinin, dünyagörüşünün zənginləşdirilməsinə və layiqli vətəndaş olaraq yetişməsinə töhfə verməkdir.

"Qış məktəbi"nin sonuncu günü bağlanış mərasimi keçirilib. Mərasimdə çıxış edən AİI-nin rektoru vəzifəsini müvəqqəti icra edən Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. Təşkil edilən proqramın tələbələr üçün böyük şans olduğunu nəzərə çatdıran A.Şirinov onlara ilahiyyat sahəsində biliklərini zənginləşdirməyi, bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib. Cəmiyyətimizi xurafatdan, mövhumatdan uzaq, saf, düzgün dini biliklərlə maarifləndirməyin əhəmiyyətinə toxunan Aqil Şirinov tələbələri milli-mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması işində fəal olmağa çağırıb.

Daha sonra A.Şirinov Qəbələnin Nic qəsəbəsində təşkil edilən "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi"nin əhəmiyyətinə toxunub, burada yaşayan udilərlə yaxından ünsiyyətin, eyni zamanda, bu tarixi məkanda mövcud olan qədim abidələrimizlə tanışlığın xüsusi səciyyə daşıdığını qeyd edib.

"Qış məktəbi" iştirakçılarının mükafatlandırılması və sertifikatların təqdim olunması mərasimi ilə yekunlaşıb.

Qeyd edək ki, layihə çərçivəsində tələbələr üçün müxtəlif seminar və ziyarətlər, film nümayişləri, əyləncəli oyunlar təşkil edilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Din araşdırmaları" jurnalı dövri elmi nəşrlərin siyahısında




İlahiyyat İnstitutunun (AİI) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) tərəfindən fəlsəfə üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

Baş redaktoru İlahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov olan "Din araşdırmaları" jurnalının dərc edilməsində məqsəd ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin təhsil müəssisələrində çalışan tanınmış mütəxəssislərdir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir. Akademik nəşrlərin ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biri olduğunu nəzərə alaraq, AİI gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsini nəzərdə tutur.

Jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb. İldə iki dəfə nəşr olunan "Din araşdırmaları" jurnalında bir çox alimin dinin teoloji, fəlsəfi, tarixi, sosioloji, psixoloji, ədəbi və digər aspektlərdən tədqiq etdiyi sanballı məqalələri çap olunur.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb






Fevralın 11-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.



AZƏRTAC xəbər verir ki, yenilənmiş növbəti həyət Pirallahı rayonu, S.Bağırov küç. 1, 2a, 8 və 16 ünvanlarında 400 nəfər sakinin yaşadığı 4 binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaq meydançası salınıb.

Eyni zamanda ərazidə 3 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün konteynerlər quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 150 ədəd ağac və kollar əkilib, 3000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Beynəlxalq aləm

## Türkiyə ordusu Əsəd rejiminin 101 hərbçisini zərərsizləşdirdi



Türkiyə Silahlı Qüvvələri Suriyada Bəşşar Əsəd rejimi ordusunun 115 hədəfini vurmuşdur. İlkin məlumata görə, 101 suriyalı hərbçi zərərsizləşdirilmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Əməliyyat Əsəd qoşunlarının İdlib gərginliyin azaldılması zonasında Türkiyə ordusunun bölmələrini top atəşinə tutmasına cavab olaraq keçirilmişdir. Hücum nəticəsində 5 türkiyəli hərbi qulluqçu həlak olmuş, 5-i yaralanmışdır.

Məlumata görə, Türkiyə Silahlı Qüvvələri Suriya rejimi ordusunun üç tankını, bir helikopterini və iki artilleriya-minaatma mövqeyini məhv etmişdir.

## *Tramp:* "Sətəlcəm koronavirusu epidemiyası apreldə bitəcək"



Çində aşkarlanmış koronavirus epidemiyası apreldə bitə bilər. Bu bəyanatla ABŞ Prezidenti Donald Tramp çıxış etmişdir.

Tramp Nyu-Həmpşir şəhərində mitinqdə iştirakdan əvvəl "Fox" telekanalına müsahibəsində ABŞ-Çin münasibətlərindən danışarkən koronavirus epidemiyası mövzusuna toxunmuşdur. ABŞ Prezidenti hesab edir ki, ÇXR-də koronavirusun qarşısı peşəkarcasına alınır: "İnanıram ki, tezliklə Çin bu virusu nəzarət altına alacaq. Apreldə hava istiləşdikcə sətəlcəm də gedəcək".

Tramp xatırlatmışdır ki, ABŞ Çinin Uhan şəhərinə ən yaxşı ekspertlərini göndərmişdir. Amerika liderinin dediyinə görə, bu məsələdə Vaşinqton və Pekin sıx əməkdaşlıq edirlər.

Bu arada Çində yeni tipli koronavirusdan ölənlərin sayı 1017 nəfərə çatmışdır. Xəstəliyə yoluxanların sayı 42638 nəfərdir. Dövlət Səhiyyə Komissiyasından verilən məlumata görə, 7333 xəstənin vəziyyəti ağırdır. Xəstələrlə əlaqədə olmuş 187728 nəfər nəzarət altındadır.

## Filippin ABŞ-la hərbi müqaviləni qüvvədən salır



Filippin Xarici İşlər Nazirliyi ABŞ-ı xarici silahlı qüvvələr haqqında müqavilənin ləğv olunacağı barədə xəbərdar etmişdir. Bu barədə Xarici işlər nazirinin müavini Dodo Dülay məlumat vermişdir.

"Manila Bulletin" qəzetinin xəbərinə görə, saziş Vaşinqton məktubu alandan 180 gün sonra qüvvədən düşəcək.

Xarici silahlı qüvvələrin statusu haqqında müqavilə 1998-ci ildə imzalanmışdır. Sənəd amerikalı hərbçilərin Filippinə girişi və qalması qaydalarını tənzimləyir, ölkə ərazisində birgə təlimlərin keçirilməsinə hüquqi əsas verir.

Filippin Prezidenti Rodriqo Duterte müqavilənin qüvvədən salınması barədə qərarını ötən ay Vaşinqton filippinli senator Ronaldu dela Roseyə viza verməkdən sonra açıqlamışdır. O, bu addımı Manilanın daxili işlərinə qarışmaq kimi qiymətləndirmişdir.

Prezident Donald Trampın ötən ayın əvvəllərində imzaladığı büdcə qanununda müxalif siyasətçi Leyla de Limaya qarşı məhkəmə prosesi ilə əlaqəsi olan filippinli məmurların ABŞ-a girişinə qadağa qoyulması barədə müddəa yer alır. Bu müddəa senator Ronaldu dela Rosa barəsində tətbiq olunmuşdur.

## Nigeriyada "Boko Haram" 30 nəfəri qətlə yetirdi



Nigeriyanın şimal-şərqində "Boko Haram" radikal qruplaşmasının hücumu nəticəsində 30 nəfər həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, hərbçilər Maiduquri-Damaturu trasını bağlayarkən ekstremistlər hücuma keçmişlər.

2009-cu ildə qruplaşmanın lideri Məhəmməd Yusuf həlak olduqdan sonra "Boko Haram" Nigeriyada silahlı hücumlarını artırmışdır.

Son illər 20 min nəfərdən çox adam "Boko Haram"ın qurbanı olmuşdur.

## Ukraynada 35 siyasi partiyanın qeydiyyatı ləğv olunur

Ukrayna Ədliyyə Nazirliyi Kiyev Dairə İnzibati Məhkəməsindən 35 partiyanın qeydiyyat şəhadətnamələrinin ləğv olunmasını xahiş etmişdir. Bu barədə məhkəmənin mətbuat xidməti məlumat vermişdir.

İddiaçı hesab edir ki, cavabdeh - siyasi partiya prezident və parlament seçkilərində on il ərzində namizədlərini irəli sürmədiyinə görə qeydiyyat şəhadətnaməsinin ləğv olunması barədə iddia ilə məhkəməyə müraciət etmək üçün hüquqi əsaslar mövcuddur. Bu cür partiyaların siyahısına "Əməkçi Ukrayna", "Ukraynalı millətçilər təşkilatı", "Pora" vətəndaş partiyası, "Ukrayna Sosial-Demokrat Partiyası", "Müxalifətçi qüvvələr bloku" və digər siyasi təşkilatlar düşmüşdür.

Bundan əvvəl "Ukrayna seçiciləri komitəsi" ictimai təşkilatının baş direktoru Aleksey Koşel bildirmişdi ki, ölkədə qeydiyyatdan keçmiş 350 siyasi pariyanın təxminən 50-si real fəaliyyət göstərir.

# Bakıya da qar yağdı




Foto A.MƏMMƏDOVUNDUR

## E.ZAHİDOV: "Səsvermə müddətində polis əməkdaşları yalnız rəsmi dəvət əsasında məntəqələrə gələrək asayişi bərpa ediblər"

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov sosial şəbəkələrdə Suraxanı rayonundakı seçki məntəqələrindən birində polis əməkdaşlarının məntəqənin daxilində bir nəfərə qarşı zor tətbiq etdiklərini əks etdirən videogörüntülərlə bağlı AZƏRTAC-a açıqlama verib.

Həmin görüntüləri izlədiklərini deyən E.Zahidov bildirib: "O görüntülər Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 8 saylı seçki məntəqəsində qeydə alınıb. Araşdırmalarla məlum olub ki, həmin məntəqənin sədri qanunvericiliyin tələbinə uyğun olaraq, ərazidə xidmət aparan polis əməkdaşlarını məntəqəyə dəvət edib və oradakı müşahidəçinin seçki prosesinə yersiz və əsassız müdaxilə etməsini, seçicilərin normal səs vermələrinə maneələr yaratdığını bildirib. Bundan sonra polis əməkdaşları məntəqəyə daxil olaraq həmin şəxsdən nizam-intizamlı olmağı və məntəqəni tərk etməsini tələb ediblər. Lakin o, polisin qanuni tələblərinə məhəl qoymayaraq onlara qarşı müqavimət göstərib. Belə olan halda polislər güc tətbiq etməklə onu məntəqədən kənarlaşdırıb və ciddi xəbərdarlıq ediblər. Bundan sonra məntəqə sədri həmin şəxsin müşahidəçi statusunda olmasını və polisin artıq xəbərdarlıq etdiyini nəzərə alaraq, onun yenidən məntəqəyə daxil olmasına icazə verib".

Səsvermə müddətində polis əməkdaşlarının yalnız rəsmi dəvət əsasında məntəqələrə gəlib asayişi təmin etdiklərini vurğulayan polis polkovniki deyib: "Yeri gəlmişkən, bir daha qeyd etmək istərdim ki, Milli Məclisə növbədənkənar seçkilər zamanı polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edib və qanunauyğun tədbirlər görüb".


## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
## *açıq tender elan edir*

LOT 1 - Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün avadanlıqların və arxivasiya işinin təşkilinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 üzrə 350 (üç yüz əlli) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **21.02.2020-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12.03.2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.03.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 3 LOT üzrə keçirilir:

**LOT 1 - "BakıTelefon Rabitəsi" MMC-nin xidməti ərazisində EATS-lərdə enerji dayanıqlığını təmin etmək üçün dizel generatorlarının satın alınması.**

**LOT 2 - İstismar işləri üçün tələb olunan materialların satın alınması.**

**LOT 3 - Stansiya akkumulyatorları və UPS-lərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 800 (səkkiz yüz) manat (ƏDV daxil)**
**LOT 2. 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 3. 400 (dörd yüz) manat (ƏDV daxil)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **04 mart 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **12 mart 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **13 mart 2020-ci il saat 11:00-dan-15:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***


## BİLDİRİŞ

07 fevral 2020-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasında quraşdırılmış "Mitsubishi" markalı 3 (üç) ədəd sərnişin liftinə il ərzində texniki dəstəyin göstərilməsi xidmətinin satın alınması üçün keçirilən kotirovka sorğusunda **"AG MELCO ELEVATOR AZERBAİJAN CO." MMC** qalib olmuşdur.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 12.02.2020 tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcək.


## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## BİLDİRİŞ

"M&M Milizer&Münch Baku LTD" MMC müflis olduğunu elan edir.

(VÖEN: 1500230961, Ünvan: Bakı şəhəri, Nizami rayonu, Əzim Əzimzadə küçəsi, 34/60)

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən iflas haqqında iş üzrə məhkəmə baxışı 25 fevral 2020-ci il saat 11:30-da Bakı Kommersiya Məhkəməsində olacaqdır.

***"M&M Milizer&Münch Baku LTD" MMC***


Qəzetin daim yenilənən rəsmi internet ünvanı:

www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri

**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və İcraiyyə Komitəsi Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri HİRK-nin sədri

**EHTİBAR ƏLİ OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Geologiya fakültəsinin dekanı Məhluqə Məmmədovaya bacısı

**MAHİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin kollektivi səhmdar cəmiyyətin sədri

**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Güləddin Dadaşov ailəsi ilə birlikdə Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri

**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin İdarə Heyətinin üzvü - sədrin müşaviri Orxan Novruzova əzizi

**SOLMAZ AXUNDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AZNUR Şirkətlər Qrupunun kollektivi Camal Əliyevə anası

**LYUDMİLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Avtomobil Zavodu İB-nin Müşahidə Şurasının sədri Xanlar Fətiyev və birliyin kollektivi Camal Əliyevə anası

**LYUDMİLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6965
Sifariş 496
Qiyməti 40 qəpik